www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 mart 2019-cu il Çərşənbə axşamı № 56 (7226) Qiymıəti 60 qəpik

Xəbər

**Eyvanda paltar ipi asan gənc 13-cü mərtəbədən yıxılıb öldü**

yazısı səh.2-də

Gündəm

**Qida Təhlükəsizliyi Agentliyi "leş mafiyası"na himayəçilikdə suçlandı**




Qoşqar Təhməzlinin rəhbərlik etdiyi qurumun əməkdaşları rüşvət almaqda və cinayətlərə göz yummaqda günahlandırıldı

yazısı səh.3-də

**Azərbaycan ordusu genişmiqyaslı təlimlərə başladı-bu, müharibə anonsudur, yoxsa...**

yazısı səh.6-da

**Bakıda orta məktəbdə şagirdini döyən müəllim işdən qovuldu**

yazısı səh.5-də

**Xaricdə təhsil proqramını ləngidən iki səbəb**

yazısı səh.6-da

**Əfv sərəncamı bu həftə imzalana bilər**

yazısı səh.5-də

**Azərbaycan müxalifəti ümidini Afrikaya bağlayıb- Əlcəzair və Sudan...**

yazısı səh.7-də

**Mədəniyyət xadimləri prezidentlə görüşdən sonrakı gözləntilərdən danışdılar**

yazısı səh.10-da

**Ermənistanın dinc nizamlamanı əngəlləməsi hərbi variantı gündəmə gətirib**

yazısı səh.11-də

**Bu gün Yel çərşənbəsidir**

yazısı səh.10-da

**İran prezidentinin qəfil Bağdad səfərində əsas hədəf**

yazısı səh.13-də

**Rusiya təyyarəsi Bakıda məcburi eniş etdi - bomba həyəcanı**

yazısı səh.14-də

# PAŞİNYAN ÖZÜNÜ TƏLƏYƏ SALDI - QARABAĞ "SÜRPRİZİ"

Erməni rəhbəri İran səfərinə peşman edildi - İrəvan üçün 3 neqativ sonuc; **erməni KİV-i:** "Danışıqlardan imtina sülh prosesinin iflası və müharibə deməkdir..."




yazısı səh.8-də

# Metro işçilərindən metropoliten rəhbərliyinə sərt və sensasion ittihamlar

"Hazırda metroda sərnişinlər böyük təhlükə ilə üz-üzədir", deyən şikayətçilərin sözlərinə görə, metroda işə qəbulda təcrübə və peşəkarlıq nəzərə alınmır

yazısı səh.4-də



*Pərviz Heydərov:*

**"Neftin qiymıəti azalarsa, bu, layihələrin icrasına təsir göstərməyəcək"**

yazısı səh.5-də



**Duqinin Türkiyə-Rusiya, slavyan-türk birliyi ideyası - realdırmı...**

yazısı səh.9-da



**BDU-ya yeni rektor təyin olundu - Elçin Babayev kimdir?**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019



## Teatr və konsert müəssisələri işçilərinin maaşı 50 faiz artdı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam imzalayıb. ONA xəbər verir ki, sərəncamda əsasən dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılması təmin edilib.**

Mədəniyyət Nazirliyinə və Maliyyə Nazirliyinə tapşırılıb ki, bu sərəncamın 1-ci hissəsinin icrası ilə bağlı zəruri tədbirlər görsün.

Nazirlər Kabinetinə tapşırılıb ki, bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həllini təmin etsin, sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

## Ərdoğan feministləri İslama hörmətsizlikdə ittiham etdi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulun mərkəzində keçirilən aksiyada iştirak edən qadınları İslam dininə hörmətsizlikdə ittiham edib. Bu barədə BBC məlumat yayıb.**

Televiziyada çıxışı zamanı Ərdoğan etiraz aksiyasından kadrları göstərərək, qadınların yaxınlıqdakı məsciddə azan səslənən vaxt müxtəlif şüarları car çəkdiklərini bildirib.

"Onlar azana sayğısızlıq edib", - deyə Ərdoğan bildirib.

Qeyd edək ki, beynəlxalq qadınlar günü münasibətilə keçirilən yürüşdə bir neçə min qadın iştirak edib. Aksiya iştirakçılarını dağıtmaq üçün asayiş keşikçiləri gözyaşardıcı qaz tətbiq edib.

Aksiya iştirakçıları sosial şəbəkələrdə yürüşün azana mane olmaq məqsədi daşımadığını bildiriblər.

Qeyd edək ki, Türkiyədə 2003-cü ildən bəri hər il martın 8-də qadınların yürüşü keçirilir. Etirazçılar qadına qarşı şiddətə son qoyulmasını və gender bərabərliyi tələb edirlər.

## Bakıda qardaş bacısını bıçaqlayıb

**Bakıda bacısına bıçaqla xəsarət yetirən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ONA-ya verilən məlumata görə, martın 9-da Qaradağ rayonunun Qızıldaş qəsəbəsində yaşayan, əvvəllər məhkum olunmuş C.Əzimov evində münaqişə zəminində bacısına bıçaqla xəsarət yetirib. Qadın dərhal xəstəxanaya yerləşdirilib.**

38-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində C.Əzimov saxlanılıb.

Faktla bağlı Qaradağ Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Mehriban Əliyeva Fransada "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşdü

**Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüb.**



Musavat.com AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşündən məmnun olduğunu deyib.

Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. "Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər", - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar tikdirdiklərini deyən Azərbaycanın birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirib, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulayıb. Mehriban Əliyeva David dö Rotşildi Azərbaycana səfərə dəvət edib.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu deyib. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul edib.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.



## Eyvanda paltar ipi asan gənc 13-cü mərtəbədən yıxılıb öldü

**Binəqədi rayonunda bədbəxt hadisə zamanı bir nəfər ölüb. ONA-nın xəbərinə görə, hadisə 9-cu mikrorayon, Adil Məmmədov küçəsi 16 ünvanında baş verib.**

25 yaşlı Həsənov Elvin Azad oğlu yaşadığı binanın 13-cü mərtəbəsindəki mənzilin eyvanından yerə yıxılaraq ölüb. Hadisəni ilk görən binanın komendantı Elmixan Museyibov olub.

Şahid ONA-ya verdiyi müsahibəsində bildirib ki, E.Həsənov yıxılan zaman valideynləri toyda olub. Onlar hadisədən xəbər tutan kimi mənzilə gayıdıblar.

Azad Həsənov bildirib ki, oğlu eyvanda paltar qurutmaq üçün asılan iplər söküldüyündən həmin ipləri bərkitmək üçün dəmirləri düzəldirmiş.

Meyit Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.



## Sumqayıtda qəza - 1 ölü, 3 yaralı

**Sumqayıtda ölümlə nəticələnən avtomobil qəzası baş verib. «Trend»in məlumatına görə, hadisə dünən gecə saat 02.00 radələrində Corat qəsəbəsində qeydə alınıb. İki avtomobilin toqquşması nəticəsində bir nəfər ölüb, 3 nəfər ağır xəsarətlər alıb. Yaralılar Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına çatdırılıblar.**

Kəllə beyin travması alan xəstələrdən birinin vəziyyəti ağır olduğundan Bakıya göndərilib. Digər yaralılar isə Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında reanimasiyaya yerləşdirilib.

## Almaniya Azərbaycana diri heyvan satışını dayandıra bilər

**Almaniyanın Şlezviq-Holşteyn (Schleswig-Holstein) Federal Əyaləti Türkiyə, Yəmən, Liviya, Mərakeş, Əlcəzair, Azərbaycan, Suriya, İordaniya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan kimi əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən ölkələrə diri heyvan satışını dayandıra bilər.**

Almaniyada fəaliyyət göstərən "Leqat" inteqrasiya mərkəzindən AzEuroNews.co-a daxil olan məlumatda deyilir ki, buna əsas kimi Azərbaycan da daxil olmaqla, həmin ölkələrdə heyvan hüquqlarının pozulması göstərilir. Şlezviq-Holşteyn Federal Əyalətində müəyyən edilmiş qaydalara görə, heyvanlar daşınarkən maksimum 29 saatdan bir nəqliyyat vasitəsindən endirilməli, gəzintiyə çıxarılmalı, onlara su və yemək verilməlidir. Şlezviq-Holşteyn hökumətinin bildirdiyinə əsasən, adıçəkilən ölkələr aldıqları heyvanlara qarşı bu qaydaları pozur, onların dincəlmək, yemək, su və içmək rejiminə riayət etmirlər.

Məlumatda qeyd olunur ki, son illərdə mal-qaranın daşınması zamanı onların havasızlıqdan boğularaq tələf olma halları da artıb.

## BDU-ya yeni rektor təyin olundu - Elçin Babayev kimdir?



**Prezident İlham Əliyevin imzaladığı sərəncamla Elçin Babayev Bakı Dövlət Universitetinin rektoru təyin edilib.**

XəzərXəbər xəbər verir ki, Elçin Babayev fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosentdir. O, daha əvvəl Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru, AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) elmi işlər üzrə direktor müavini, "ŞAR Kosmik plazma və Heliogeofiziki problemlər" şöbəsinin rəhbəri vəzifələrini tutub.

Qeyd edək ki, E.Babayev 1965-ci ildə Naxçıvan şəhərində anadan olub.

## Mehdiabad qəsəbəsində tank əleyhinə minalar tapılıb

**Mehdiabad qəsəbəsində 2 ədəd təlim məqsədli tank əleyhinə mina aşkar olunub.**

ANAMA-dan «Trend»ə verilən məlumata görə, Daxili İşlər Nazirliyinin «102» Xidməti-Zəng mərkəzi sistemindən agentliyə Abşeron rayonu, Mehdiabad qəsəbəsi ərazisində minanın tapılması barədə məlumat daxil olub.

Məlumata əsasən, agentliyin xüsusi mobil çevik əməliyyat qrupu və Daxili İşlər Nazirliyinin Abşeron Rayon Polis İdarəsinin əməkdaşları dərhal həmin əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri və Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən birlikdə yuxarıda adı qeyd olunmuş ərazidə yol kənarına baxış keçirilib. Yerli əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə ərazi polis tərəfindən mühasirəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təcili təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 2 ədəd təlim məqsədli (tərkibində heç bir partlayıcı maddə olmayan) tank əleyhinə mina (TM-46 və TM-62M) aşkar olunub, götürülərək agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.

Minaların ətrafında 500 kv/m əraziyə yerüstü baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkarlanmayıb.

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# Qida Təhlükəsizliyi Agentliyi "leş mafiyası"na himayəçilikdə suçlandı

## Qoşqar Təhməzlinin rəhbərlik etdiyi qurumun əməkdaşları rüşvət almaqda və cinayətlərə göz yummaqda günahlandırıldı

**"Məncə, bu gün Azərbaycanda korrupsiyaya ən çox bulaşmış dövlət orqanı - Qida Təhlükəsizliyi Agentliyidir. Şəhərin canına düşüb bütün kafe və restoranlardan rüşvət yığırlar. Halbuki beynəlxalq təşkilatların rəyinə görə, Azərbaycanda qida təhlükəsizliyi problemi katastrofik durumdadır.**



Hər səhər, təxminən saat 5.00-dan - 8.00 qədər Təzə Bazarda ölü ətinin kilosunu 1 manatdan satırlar. Restoran və dönərxana sahibləri bu qara nöqtənin əsas müştərilərindəndir. Qida Təhlükəsizliyi Agentliyi bu qara bazardan rüşvət alır və belə cinayətlərə göz yumur...

Məncə, bu agentliyin fəaliyyəti ciddi nəzarətə götürülməlidir".

Bu iddia ilə haqqın.az və virtualaz.org saytlarının rəhbəri Eynulla Fətullayev çıxış edib. Eynulla Fətullayev agentliyin rəhbəri Qoşqar Təhməzlinin fotosunu facebookda paylaşaraq, altından aşağıdakı cümləni yazıb: "Tanış olun: Qoşqar Təhməzli, Agentliyin rəhbəri, faktiki olaraq özümüzə və balalarımıza qarşı çirkin əməllərin iştirakçısı!"

"Yeni Müsavat"ın əməkdaşı Qida Təhlükəsizliyi Agentliyinin, onun rəhbəri Qoşqar Təhməzlinin ünvanına səslənən korrupsiya ittihamlarına münasibət öyrənməyə çalışıb. Lakin QTA-dan ittihamlara susmaqla cavab veriblər.

Ümumiyyətlə, bu agentlik fəaliyyətdə olduğu dövrdə mətbuatla əlaqələr olduqca bərbad durumdadır, sorğular bir qayda olaraq cavabsız buraxılır.

Azərbaycanda "leş mafiyası"nın fəaliyyəti haqda isə illərdir ki, yazılar dərc edilir. 2018-ci ildə Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başlayana qədər dövlət qurumları həmin yazılara reaksiya verir, ölmüş, murdar heyvan ətlərinin satışı ilə məşğul olanlar barəsində pis-yaxşı tədbirlər görürdü. QTA isə belə hallara qarşı sistemli, kəsərli tədbirlərin görülməsi zərurətindən yaranmışdı. Agentlik baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni həyata keçirməklə, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatını, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə cavabdehdir. Həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.



Xeyli müddətdir agentlik fəaliyyətdədir, amma gördüyü iş, qidaların təhlükəsizliyi üçün atdığı addımlar nəzərə çarpmır. "Leş mafiyası" QTA yaradılandan əvvəl hansı qaydada işləyirdisə, indi də həmin qaydada fəaliyyətdədir. Yeni qara bazara leş ət daşınması dayandırılmayıb. Ortada qara bazarda satılan leş ətlərdən QTA-ya pay çatması iddiası da var!

"Qida Təhlükəsizliyi Agentliyi bu qara bazardan rüşvət alır və belə cinayətlərə göz yumur..." iddiası çox ciddidir, agentliyin korrupsiyaya bulaşması ümumilikdə prezident səviyyəsində vətəndaşların qida təhlükəsizliyinin təmini ilə bağlı qərarına kölgə salır. Qeyd edək ki, illərdir rayonlardan Bakıya at, eşşək, hətta caynaqlı quşların, heyvanların ətləri gətirilərək digər heyvanların, quşların əti adı altında, yarımfabrikat şəklində satışının təşkilini dayandırmaq mümkün olmur.

2017-ci ilin fevralında prezident Qida Təhlükəsizliyi Agentliyinin yaradılması üçün fərman imzalayıb. 2018-ci ildə fəaliyyətə başlayan agentlik ötən dönəmdə qeyri-şəffaf idarə edilib, mediadan gizli fəaliyyətdə olub. Agentliyin fəaliyyətindəki məxfiliyin "leş mafiyası" üzvlərinin xeyrinə olması da göz qabağındadır. Ötən 1 ildən artıq müddətdə QTA-nın "leş mafiyası"na qarşı təsirli tədbirləri olmayıb. Bu isə haqlı olaraq QTA-nın korrupsiya ittihamlarına tuş gətirib. Əgər gizlədiləsi bir iş yoxdursa, QTA gördüyü tədbirlərlə bağlı mətbuata niyə açıqlama verməsin? Niyə QTA-nın saytında təhlükəli qida və zəhərlənmələr haqda məlumatlar yerləşdirilməsin? Axı 1 il bu işlərin görülməsi üçün kifayət qədər böyük bir zaman kəsiyidir. Ölkə başçısı mətbuata açıqlamalar verdiyi bir vaxtda agentlik rəhbəri mediadan niyə gizlənir? Qoşqar Təhməzlinin ictimaiyyətdən gizlətmək istədiyi, gizli saxlamağa çalışdığı məsələlər korrupsiya ittihamları ilə bağlı ola bilərmi?

Suallar açıqdır və Qoşqar Təhməzli cavab verəcəyi təqdirdə ictimailəşdirməyə hazırıq.

**QTA-ya yönəlik korrupsiya və rüşvət ittihamları, "leş mafiyası" ilə əlaqələri haqda iddialarla bağlı "Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynovun fikirlərini öyrəndik.**

**Eyyub Hüseynov deyir ki, QTA yaradıldığı ilk gündən baş nazirin müavini Əli Əhmədova məktubla müraciət edib:** "Məktubda QTA-ya 20 illik təcrübəsi olan təşkilatımızın əlindən gələn köməyi əsirgəməyəcəyimizi bildirdim. QTA-nın əsasnaməsi mükəmməldir, ambisiozdur. Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün çox böyük əhəmiyyət kəsb edən sənəddir. Bu gün Azərbaycanda HAPP sisteminə balıq və balıq məhsulları, kürü və fındıq qoşula bilib. Azərbaycanda bu gün çox sayda məhsullar istehsal olunur. Amma hələ də HAPP sisteminə qoşulmayıb. QTA bu məsələləri həll etməli idi. Mən yazdığım məktubda QTA-da şəffaflığın təmin olunması üçün ictimai təşkilatların təmsil olunmasını təklif etdim. Bu QTA-nın əsasnaməsində də qeyd olunub ki, kollegiya təşkil olunmalı, kollegiyada ictimai təşkilatlar ola bilər. Əgər şəffaf işləyirlərsə, ictimai təşkilatlar QTA-da təmsil olunmalıdır. Bunu qəbul etmədilər. Qoşqar Təhməzli ilə beynəlxalq konfranslardan birində görüşdük. O dedi ki, ictimai təşkilatlarla işləmək istəmir. Yeni şəffaflığa qarşıdırlar. Ölkə prezidentinin çox gözəl bir təşəbbüsü olan QTA-nın bu gün korrupsiya və rüşvətdə adının hallanması çox pis, neqativ haldır. Əgər bu ittihamlar doğrudursa, olduqca xoşagəlməz haldır. Dövlətin, hökumətin xalqa yönəlik addımları belə xoş olmayan şəkil almamalıdır. Şəffaflıq olmayan yerdə bu və digər qurumun fəaliyyəti ancaq neqativ çalarlarda ifadə olunacaq. Qoşqar Təhməzli ictimaiyyət qarşısına çıxıb hesabat verməlidir. Bunu onun təyin edildiyi vəzifə, ona göstərilən yüksək etimad tələb edir".

**Eyyub Hüseynov deyir ki, "leş mafiyası" ilə bağlı ən uğurlu fəaliyyəti Daxili İşlər Nazirliyi görüb:** "QTA ictimaiyyətdən gizlənmək əvəzinə ictimaiyyətlə işləməli, sıx təmasda olmalıdır. Bunun üçün körpü rolunda KİV və ictimai təşkilatlarla əlaqələrdən istifadə edilməlidir. Kollegiya yaradıb, orada KİV və ictimaiyyət nümayəndələrinin təmsil olunması vacibdir. Əks halda, bu cür pis nəticələr olacaq".

**AİB sədri deyir ki, "leş mafiyası"nın fəaliyyəti bu gün də davam edir:** "Rayonlarda, kəndlərdə heyvanlar xəstəlikdən, qocalıb öləndə zəng vururlar, leş yığanlar gəlir və ölmüş, murdar olmuş cəsədi götürüb aparırlar. Leş əti Bakıda satanlarla yanaşı, onu alanlar da məsuliyyətə cəlb olunmalıdır".

**E.Hüseynov bildirir ki, həmin murdar heyvanların ətlərini kolbasa, sosiska istehsalçılarının alması da istisna deyil:** "QTA-nın 1003 qaynar xətti var. Həmin xəttə xoşagəlməz hal barədə vətəndaş Aydın Əliyev yanımdan müraciət etdi. QTA-dan verilən cavablar səmərəsizdir. Şəffaflıq təmin olunmasa, QTA-nın fəaliyyətində dönüş olmayacaq".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

## Novruz bayramınadək 1 200 şəhid üzrə 1 928 vərəsəyə birdəfəlik ödəmə veriləcək

**Azərbaycanda Novruz bayramına qədər 1 200 şəhid üzrə 1 928 vərəsəyə birdəfəlik ödəmənin verilməsi təmin ediləcək. Bununla da ödəmə almış vərəsələrin sayı 7 894-ə çatacaq.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən ONA-ya verilən məlumata görə, nazirlik nəzdində fəaliyyət göstərən komissiyanın növbəti iclasında həmin şəhid vərəsələrinə birdəfəlik ödəmə (11 min manat) verilməsi barədə qərar qəbul edib. Onların siyahısı müvafiq ödənişin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib.

Dövlət başçısının 28 yanvar 2019-cu il tarixli fərmanı ilə birdəfəlik ödəmə verilən şəhid vərəsələrinin əhatə dairəsinə vərəsələri 11 000 manatdan az sığorta ödənişi almış şəhid hərbi qulluqçuların və şəhid polislərin vərəsələri də daxil edilib. Beləliklə, vərəsələrinə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhidlərin sayı 12 268-ə çatıb.

Qeyd edək ki, indiyədək artıq 5 491 şəhidin 7 894 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

**"Bakı Metropoliteni" QSC-nin bir qrup əməkdaşı "Yeni Müsavat" qəzetinin redaksiyasına gələrək, metropoliten rəhbərliyindən şikayətlərini bildiriblər. Şikayətçilər bildirirlər ki, problemləri ilə bağlı müvafiq qurumlara müraciət edib kömək ala bilməyincə, məsələni ictimailəşdirmək qərarına gəliblər.**

# Metro işçilərindən metropoliten rəhbərliyinə sərt və sensasion ittihamlar

## "Hazırda metroda sərnişinlər böyük təhlükə ilə üz-üzədir" deyən şikayətçilərin sözlərinə görə, metroda işə qəbulda təcrübə və peşəkarlıq nəzərə alınmır; "Tuneldə və qatarda heç vaxt işləməmiş insanların fövqəladə hallarda qatarı necə idarə etmələri sərnişinlərin taleyini təhlükəyə atmaqdır"

*Şikayətçilər özlərini aşağıdakı kimi təqdim ediblər:*

*BMP-QSC-nin baş müfəttişlik aparatının Qatarların hərəkət təhlükəsizliyi üzrə müfəttiş 37 ildən artıq fasiləsiz metropolitendə çalışan Nazim Mədət oğlu Abdullayev;*

*Maşinist, Qarabağ müharibəsi veteranı Asif Mirzə oğlu Rzayev;*

*Maşinist Fikrət Sərvər oğlu Şıxaliyev.*

*Şikayətçilər bildirdilər ki, bir neçə həmkarları da üzləşdikləri vəziyyətdən şikayətçidirlər, lakin iş rejimlərinin sərt olması səbəbindən metropolitendən ayrıla bilməyiblər.*

*Şikayətçilər başlarına gələni aşağıdakı kimi anlatdılar:*

"Nazirlər Kabinetinin 5 iyul 2004-cü il tarixli 92 saylı qərarında maşinist və maşinist köməkçisi peşəsi zərərli və ağır istehsalatın peşə və vəzifələri siyahısında öz əksini tapıb. Maşinist və maşinist köməkçilərinin əmək kitabçalarında xüsusi ağır əmək şəraiti və həftədə 36 saatlıq iş rejimi qeyd olunduğu halda "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı olmadan 25.09.2017- ci il tarixində 646 saylı əmrlə 10.10.2017-ci il tarixdən etibarən maşinistləri yeni iş qrafikinə keçirib. Həmçinin sədr bu qərarla maşinist köməkçisi peşəsini ləğv edib, metropolitendən heç bir məlumatı olmayan şəxsləri işə qəbul edib, qısa vaxt ərzində maşinist olacaqlarına dair onlara vəd verib. Tuneldə və qatarda heç vaxt işləməmiş, təlimata əsasən ən azı 3-cü çilingərlik dərəcəsi olmayan insanların qatarı necə idarə etməyi bilməmələri sərnişinlərin taleyini təhlükə altına atmaq deyilmi?! Metropoliten rəhbərliyi yaddan çıxarır ki, hər bir maşinist kabinasının arxasında minlərlə insan taleyi durur.

Yeni iş qrafikinə əsasən gecə saat 03-04 radələrindən başlayaraq (maşinistlərin yaşayış yerindən asılı olaraq vaxt tezləşdirilir) maşinistləri evlərindən götürüb işə gətirirlər. Gecikmə, itlərin hücumuna məruz qalma halları olduqda maşinistlər həkim komissiyasından keçmədən işə buraxılır. Həkim komissiyasından keçərkən təzyiqi 160-170 olan maşinistlər belə işə buraxılırlar. 4-5 saat işlədikdən sonra iş sona çatır. Gecə yuxusuz qalmış maşinistlərin sərnişinləri mənzil başına təhlükəsiz çatdırması böyük riskdir.

"Bakı Metropoliteni"ndə çalışan işçilərdən hər hansı biri şikayət etdikdə və ya öz hüquqlarını tələb etdikdə, İnsan Resursları və Xidmət departamentinin rəisi Tərlan Dadaşov, İnsan Resursları şöbəsinin rəisi Əli Əliyev, Hüquq şöbəsinin rəisi Adil Atakişiyev, baş müfəttiş Elxan Məmmədov həmin şəxsləri idarəyə çağırtdırıb, günlərlə onları süründürməçiliyə salır, təzyiq yolu ilə onlardan izahatlar alır, təhqir edir, heç bir əsas olmadan mükafatlarını kəsdirir, tutduqları peşədən, vəzifədən aşağı peşəyə, vəzifəyə keçirir. Öz ərizələri ilə işdən çıxmalarını tələb edir, işçi öz ərizəsi ilə işdən çıxmaq istəmədikdə Tərlan Dadaşovun imzası ilə qanunsuz ixtisara salıb, işdən azad edirlər. Bütün bunlarla bağlı əlimizdə kifayət qədər faktlar var. Xoşları gəlməyən metropoliten işçilərini heç bir əsas olmadan, hətta işçinin istirahət günündə kafedə oturub söhbət etdiklərinə görə də cəzalandırırlar. Bütün bu əmrlərin surəti əlimizdədir. İşçini cəzalandırdıqda Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 1995-ci il tarixli 198 saylı qərarı ilə təsdiq edilmiş "Bakı Metropoliteni QSC " işçilərinin əmək intizamı haqqında Nizamnaməsi və təlimatlar deyil, "Zaur Hüseynov hökuməti"nin istəkləri nəzərə alınır".

**Şikayətçilər bildiriblər ki, metropolitenin texniki istismar qaydaları kobud şəkildə pozulur və sərnişinlər təhlükə altındadır:**

"Metropolitenin texniki istismar qaydaları kitabının 6.26 bəndinə zidd olaraq "İçərişəhər" stansiyasında 2-ci baş yolda stansiyanın girişində olan ətalətli avtostop Zaur Hüseynovun əmri ilə sökülüb. Həmin avtostop 2-ci baş yolda stansiyaya girən qatarların təhlükəsiz hərəkətini təmin etməklə bərabər, həm də qatar əks istiqamətdə hərəkət edərkən 2-ci baş yoldan 1-ci baş yola keçiddə sürətə nəzarət edirdi. Nəzərinizə çatdırırıq ki, hazırda "İçərişəhər" stansiyasına sərnişinlə 2-ci baş yola girən qatarların, həmçinin də 2-ci baş yoldan qayıdan qatarların və sərnişinlərin təhlükəsizliyi təmin olunmur.

Metropolitenin texniki istismar qaydaları kitabının 6.35 bəndində metropoliten xətləri, ötüb keçən qatarların vaqon bukslarının qızmasını avtomatik olaraq təmassız aşkara çıxaran və bu barədə müvafiq məlumatı yaxındakı stansiyanın mərkəzləşmə məntəqəsinə, yaxud qatar dispetçerinə ötürən qurğularla təchiz olunmalı olduğu halda Bakı Metropoliteninin rəhbərliyi bunu yaddan çıxarır. Sərnişinlə dolu qatarları heç bir təhlükəsizlik tədbiri görmədən yolda işlədirlər. Nəzərinizə çatdırırıq ki, həmin qurğu Bakı Metropolitenində 2 ədəd var idi, söküləndən sonra yerinə yenisini quraşdırmaq yaddan çıxıb.

Metro vaqonlarının təmiri üzrə rəhbər sənəd olan "Ü metro 4592" saylı metropoliten vaqonu kitabının 1-ci başlıq 1.7 bəndində - Metro vaqonlarında istehsalçı zavodla razılaşdırmadan konstruktiv dəyişikliklərin edilməsi qadağan olunduğu halda, Bakı Metropolitenində vaqonların ayrı-ayrı aparatları, maşinist kabinələri çox keyfiyyətsiz şəkildə, yanğın təhlükəsizliyi qaydalarına düzgün riayət edilmədən dəyişdirilir.

Maşinist kabinəsinin ön hissəsində fövqəladə hallar zamanı sərnişinlərin qatardan düşürülüb təxliyə edilməsindən ötəri qapı açılıb (yığılan pilləkən olduğu halda) onları ləğv edərək, yeni kabinə quraşdırılır".

**Şikayətçilərin sözlərinə görə, qatarların hərəkəti ilə bilavasitə əlaqəli olan işçilərlə əmək müqaviləsi pensiya yaşına çatana qədər bağlanmalı olduğu halda, işçilərlə istənilən yaş həddində əmək müqaviləsi bağlanır, bu da hərəkətin təhlükəsizliyini böyük risk altında qoyur:**

"Təlimata əsasən, lokomotiv briqadalarının ən azı 85 faizinin fərdi iş cədvəlləri ilə işləməsi göstərildiyi halda, indiyədək heç bir maşinistə fərdi iş cədvəli verilməyib. Həmin təlimata əsasən aylıq iş qrafiki və əmək qanunvericiliyinə uyğun surətdə istirahət günlərinin verilməsi ən gec növbəti təqvim ayının başlanmasına 5 gün qalmış elan olunmalıdır. Amma buna hələ də riayət olunmur. Hər il tibbi müayinədən keçməyə görə lokomotiv briqadalarının üzvlərinə ildə bir dəfə 6 iş saatının və texniki təlimə görə hər ay 2 iş saatının haqqı ödənilməli olduğu halda bu qanun icra edilmir".

**Şikayətçilər deyirlər ki, 16 iyun 2015-ci il tarixdə təsdiq edilmiş "Bakı Metropoliteni" QSC-nin elektrik hərəkət qatarının maşinistinə tək maşinist işləmək hüququnun verilməsi barədə əsasnamənin tələbləri yerinə yetirilmir, yeni təlimat yoxdur.**

**Maşinistlər bildiriblər ki, sədr onları qəbul etmir, iclasları isə rus dilində aparılır:**

"30 sentyabr 2002-ci il tarixli Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun 4.1 bəndinə zidd olaraq maşinistlərin iclasları rus dilində aparılır.

Metropoliten sədrinin 16 sentyabr 2014-cü il tarixli 82 saylı əmrinə müvafiq təsis olunmuş təlim-tədris mərkəzinin Təhsil Nazirliyi tərəfindən verilmiş lisenziyası yoxdur. Heç bir təhsili olmayan işçilər ali təhsilli mühəndislərə dərs keçir.

Təlim-tədris mərkəzinin təşkil etdiyi ixtisas kurslarını bitirən işçilərə etibarlılıq müddəti 1-2 il olan sertifikat verilir ki, bu da görünməmiş hadisədir.

**Şikayətçilərin sözlərinə görə, vaqonların əsaslı təmiri deyək olar ki, aparılmır:** "Bir qatarın avadanlıqlarının sökülüb digər qatara yığılması və kabinənin dəyişdirilib, qatarın rənglənməsi ilə vaqonların əsaslı təmiri bitmiş hesab edilir. Yüzdən yuxarı artıq qaçışlı, əsaslı təmirə ehtiyacı olan vaqonlar əvvəlki, metropoliteni dərindən bilən metropoliten rəislərinin vaxtında ehtiyat hissələrinin çatışmaması səbəbindən əsaslı təmir oluna bilmədi, necə olur ki, metropolitendən xəbəri olmayan Zaur Hüseynov bunların hamısını az vaxtda təmir etdirdi? Bu cür təmirdən çıxmış vaqonlarda sərnişin daşınması sərnişinlərin həyatını təhlükəyə atmaq deməkdir.

Metropoliten vaqonlarının dartı mühərriklərinin təmiri "Ü Metro 3896" saylı təlimatın heç bir bəndinə uyğun gəlmir. Yığılmış dartı mühərrikləri təmirdən sonra yoxlanılmır, stend tələblərə cavab vermir, vaqon formulyarlarına saxta parametrlər qeyd edilir. Bu cür dartı mühərrikləri ilə təchiz edilmiş vaqonlarla sərnişin daşınması sərnişinlərin təhlükəsizliyinə heç vaxt təminat verə bilməz.

29.11.2018 ci il tarixində 2659-2669 saylı qatar tərkibi sərnişinlə xətdə işləyərkən 2669 saylı vaqonda keyfiyyətsiz təmirin nəticəsində təkər cütlərinin reduktorunda "SERQA" adlanan detal sınmış, nəticədə sərnişinlər qatardan boşaldılıb, qatar depoya göndərilmişdir. Bu hadisə böyük bir facİə ilə nəticələnə bilərdi. Gecə işində motovozlarla daşınan yüklər acınacaqlı vəziyyətdə daşınır. Yük platformalarının əyləc avadanlıqları sökülüb əyləcsiz platformalarla yüklərin daşınması, gecə tuneldə işləyən işçilərin həyatlarını təhlükə altına atmaq deməkdir".

**Maşinistlər başqa bir vacib məqama da toxunublar. Onların sözlərinə görə, "Avtovağzal"-"Memar Əcəmi-2" xəttində quraşdırılmış "THALES" sistemi tələblərə cavab vermir:** ""THALES" sistemi "Avtovağzal" - "Memar Əcəmi-2" xəttində təhlükəsizliyi təmin etməlidir, hazırda söndürülüb.

16.08.2017-ci il tarixdə maşinist Rafiq Hüseynov və maşinist köməkçisi Valeh Heybətov "Memar Əcəmi-2" stansiyasını 73 metr keçmiş, qatar tuneldə iki yolun arasında yığılmış relslərə dəyərək dayanıb. Nəticədə 8857 saylı vaqonun 1-ci təkər cütünün reduktoru sınıb, 2-ci təkər cütünün reduktoru zədələnib və digər aparatlar da zədə alıb. Bu cür faktlar çoxdur və xahiş edirik ki, müvafiq qurumlar tədbir görsünlər. Əks halda, metroda böyük facİə yaşanacaq".

Məsələ ilə bağlı "Bakı Metropoliteni"nə müraciət etdik. Bildirildi ki, şikayətlərlə tam tanış olduqdan sonra açıqlama veriləcək.

**❑ Əli RAİS,**
**Musavat.com**
**Fotolar: Elçin Əkbərov**


ELAN

Bütün maşinistlərin nəzərinə:

Qatarda quraşdırılan odsöndürənlərin sınaq müddəti bitməsinə baxmayaraq, onların istismar olunmasına müvəqqəti icazə verilir.


"Memar Əcəmi – 2 " stansiyasında yolun ortasına yığılmış relslər






"Memar Əcəmi - 2 " stansiyasında 8857 saylı vaqonda sınmış reduktorun görünüşü

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# "Neftin qiyməti azalarsa, bu, layihələrin icrasına təsir göstərməyəcək"

**Ekspert:** "2019-cu ilin dövlət büdcəsi elə tərtib olunub ki, gəlirlərin təminatında neftin qiymətindən asılılıq demək olar ki, yoxdur"

**Yanvar ayından başlayaraq Azərbaycan hökuməti xeyli sayda sosial xarakterli addımlar atıb. Bura minimum əmək haqqı və pensiya məbləğlərinin artırılmasından tutmuş, 50-dək müavinətin artırılmasına, problemli kreditlər məsələsinin həllinə qədər çoxsaylı addımlar daxildir. Rəsmi açıqlamalara görə, hökumətin sosial xarakterli qərarlarının icrasına dövlət büdcəsindən 2,2 milyard manat vəsait yönəldiləcək. Bundan əlavə, bir sıra başqa sahələrdə də addımların atılacağı gözlənilir ki, bu qeyd olunan məbləğin daha da artmasına gətirib çıxaracaq.**



Pərviz Heydərov

Bu qədər əlavə maliyyə yükünü üzərinə götürən hökumət onların qarşılanmasında çətinliklə üzləşə bilərmi? Ölkə büdcəsinin formalaşmasında mühüm rolu olan neftin dünya bazar qiymətinin kəskin enişi və hökumətin sosial xərcləri qarşılaya bilməməsi mümkündürmü? Sualları cavablandıran iqtisadçı-ekspert Pərviz Heydərovun "Yeni Müsavat"a dediyinə görə, adətən sosial xarakterli addımlar hökumət ilin ortasında, yaxud ikinci yarısında atırdı: "Yeni artıq dövlət büdcəsinin icra vəziyyəti böyük mənada aydın olduqdan sonra hansısa əmək haqqı artımı və sair addımlar atılırdı. Burada istisna yalnız ilin əvvəlində pensiyaların indeksasiyasına aiddir. Bu il isə sosial artım qərarları ilin əvvəlindən verilməyə başlanıb. Bu qərarlar nəticəsində həm sosial xərclərin büdcədəki çəkisi artacaq, həm də dövriyyəyə 2,2 milyard manatdan yuxarı əlavə vəsait daxil olacaq. Bu baxımdan, artan xərclərin qarşılanması məsələsi istər-istəməz gündəmə gəlir. Biz bilirik ki, büdcəmizin formalaşmasında neftin dünya bazar qiyməti mühüm rol oynayır. Bu şəraitdə neftin qiyməti düşərsə, hökumət büdcənin sosial xərclərini qarşılamaqda çətinlik çəkərmi? Birmənalı olaraq cavabım budur ki, xeyr, hökumət belə bir problem qarşısında qalmayacaq".

Ekspert bildirir ki, **2019-cu ilin dövlət büdcəsi elə tərtib olunub ki, gəlirlərin təminatında neftin qiymətindən asılılıq demək olar ki, yoxdur:** "Əvvəla, büdcədə bu sosial xərclərin artımı üçün vəsait nəzərdə tutulub. İkinci tərəfdən, son vaxtlar korrupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının azaldılması istiqamətində atılan addımlar sayəsində vergi və gömrük orqanları tərəfindən büdcəyə əlavə gəlirlərin daxil olması təmin edilib. Məsələn, 2018-ci ildə aparılan vergi nəzarəti tədbirləri nəticəsində iri topdansatış obyektlərində 930 milyon manat, market şəbəkələrində 122 milyon manat, özəl tibb müəssisələrində isə 230 milyon manat vəsaitin vergidən gizlədilməsi aşkar edilib. Gömrükdə isə sadəcə, malların və nəqliyyat vasitələrinin düzgün qiymətləndirilməsi və bəyan edilməsi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi nəticəsində 1 milyard manatdan artıq vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin olunub. Bu islahatlar cari ildə vergi qanunvericiliyinə edilən mühüm dəyişikliklərlə daha da dərinləşdirilib ki, bu da büdcəyə əlavə gəlirlərin daxil olmasına imkan verəcək. Üçüncüsü, neftin qiyməti bizim büdcəyə birbaşa təsir göstərmir. Qiymət Dövlət Neft Fondunun gəlirlərinə təsir göstərir. Bildiyiniz kimi, Azərbaycanda dövlət büdcəsinə Neft Fondundan transfertlər həyata keçirilir. Bu il bu transfertin həcminin 11 milyard 364 milyon manat olması nəzərdə tutulur. Hətta qiymətlər kəskin aşağı düşsə belə, bu məbləğin büdcəyə köçürülməsi təmin olunacaq. Bu isə büdcənin cari xərclərini qarşılamağa tam imkan verir. Büdcədə neftin qiymətinin azalması yalnız xarici şirkətlərin ödədikləri mənfəət vergisinin azalmasına səbəb ola bilər ki, bu da cüzi bir paya malikdir".

**Neftin dünya bazar qiymətində kəskin dəyişiklik ehtimalına gəlincə, ekspert yaxınmüddətli dövrdə bunun gözlənilən olmadığı qənaətindədir:** "Birinci rüb başa çatmaq üzrədir, neftin qiyməti stabil olaraq 65 dollar ətrafında dəyişir. Birinci rübdə bağlanan müqavilələr hesabına Azərbaycan ikinci rübün bu qiymət həddində gəlirini təmin edib. Faktiki olaraq, bu, ilin birinci yarısı üçün büdcədə nəzərdə tutulan qiymətdən də 5-6 dollar yüksək hədd var artıq. Bununla yanaşı, hətta bundan sonra qiymətlər ən təhlükəli həddə düşsə belə, dövlət büdcəsinin icrası üçün çətinlik olmayacaq. Bu ehtimalı isə mən real hesab etmirəm".

❑ **Dünya SAKİT,**

# Əfv sərəncamı bu həftə imzalana bilər





**Əliməmməd Nuriyev:** "Hansı gün sərəncamın veriləcəyi barədə..."
**Səidə Qocamanlı:** "Əfv sərəncamı bir çox ailələrə sevinc gətirəcək"

**Novruz bayramı yaxınlaşdıqca veriləcək əfv sərəncamı ətrafında müzakirələr artır, ümidlər çoxalır. Əfv Komissiyası artıq işlərini yekunlaşdırıb. Bu da sərəncamın hansı tarixdə veriləcəyi ilə bağlı müzakirələri durmadan artırır.**

Ehtimallar var ki, ya həftə, ya da gələn həftənin ilk günü yəni martın 18-də sərəncam verilsin.

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** "Yeni Müsavat"a bildirdi ki, əfv sərəncamının nə zaman verilməsini ölkə prezidenti müəyyən edir: "Kimlərin sərəncamla azadlığa buraxılması da birbaşa ölkə rəhbərinin qərarıdır. Əfv Komissiyası işlərini başa çatdırmaq ərəfəsindədir. Bəzi texniki məsələlər qalıb. Əfv Komissiyası son qərar qəbul etmir, sadəcə, daxil olan müraciətlərə baxıb tövsiyə xarakterli qərarlar qəbul edir və ölkə başçısına təqdim edir. Konkret hansı gün sərəncamın veriləcəyi barədə heç kəs heç nə deyə bilməz. Bundan əvvəlki illərin təcrübəsindən çıxış etsək deyə bilərik ki, mütəmadi olaraq Novruz bayramları ərəfəsi əfv sərəncamları imzalanıb. Yalnız ötən il burada istisnadır. Buna səbəb də Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyi olmuşdu. Bu tarixlə əlaqədar əfv sərəncamına 634 nəfərin adı daxil olmuşdu. Hər kəs arzu edir ki, əfv sərəncamı olsun. Prezidentimiz hər zaman Novruz bayramı ərəfəsində insanları sevindirib. Bu dəfə də sevindirəcək. Onsuz da bu ilin əvvəllərindən başlayaraq, prezident tərəfindən çox müxtəlif xarakterli qərarlar qəbul olunub və indinin özündə də bu qərarlar ard-arda gəlir. Güman edirəm ki, məhkumlarla bağlı da belə qərar verilə bilər. Bu bizim ancaq versiyalarıdır".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı əfv sərəncamının nə zaman veriləcəyi ilə bağlı dəqiq məlumatı deməyin mümkünsüz olduğunu söylədi:** "Bu barədə danışmaq səlahiyyətində deyiləm. Hər halda, onu deyə bilərəm ki, bu həftənin sonlarında və gələn həftənin ilk iki günündə əfv gözləmək olar. Əfv Komissiyası artıq işini bitirib. Siyahılar hazırdır, prezidentə göndəriləcək. İndi hər şey prezidentin səlahiyyətindədir. Çox ümid edirəm ki, əfv sərəncamı imzalananda bizim təqdim etdiyimiz siyahı nəzərə alınacaq. Bu əfv gərək daha da geniş olsun. Ümidlərimizi qıran əfv olmamalıdır. Adətən əfv sərəncamı martın 20-dən 1-2 gün əvvəl verilir. Bir dəfə elə olub ki, sərəncam bayram axşamı imzalanıb. Ona görə də qarşıdakı 9-10 günü daha çox nəzərdə tutmaq lazımdır. Bu günlər bizim üçün ən həyəcanlı günlərdən olacaq. Gözləmək çox dəhşətli bir hissdir. Hər halda, ümid edirəm ki, gözləntilərimiz sonunda ümidlərimizin qırılması ilə nəticələnməyəcək. Əfv sərəncamı bir çox ailələrə sevinc gətirəcək, bir sıra məhbuslar ailələri ilə əziz bayramı qeyd edəcəklər. Əmin olun ki, onlardan daha çox daxili təlatümü biz keçiririk. Biz də maraqlıyıq ki, siyahılar qapansın, ölkəmiz əleyhinə aparılan o çirkli kampaniyalara son qoyulsun. Əfv Komissiyası bu dəfə çoxsaylı müraciətə baxıb. Bizim siyahıya da baxılıb. Nəticənin necə olacağını biz də sizlər kimi gözləyirik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Bakıda orta məktəbdə şagirdini döyən müəllim işdən qovuldu

**Bakının Binəqədi rayonunda orta məktəbdə şagirdini döyən müəllim işdən qovulub.**

Bu barədə məktəbdən BAKU.WS-ə məlumat verilib. Bildirilib ki, hərbi hazırlıq müəllimi Mehman Mənsimov Bakı Şəhər Baş Təhsil İdarəsinin müdiri Rəşad Tağıyevin əmri ilə işdən azad olunub.

Bu məlumatı Bakı Şəhəri üzrə Təhsil İdarəsindən də BAKU.WS-ə təsdiqlədilər.

Qeyd edək ki, Binəqədi rayon 30 saylı orta məktəbin hərbi hazırlıq müəllimi Mehman Mənsimov 11-ci sinif şagirdlərindən birini vəhşicəsinə döyüb. Bunu şagirdlərdən biri çəkib.

Videodan da göründüyü kimi, müəllim uşağın ağzına, başına və bədəninin müxtəlif hissələrinə zərbələr endirir.

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

**Azərbaycan ordusu genişmiqyaslı təlimlərə başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Report"a verilən məlumata görə, təlimlər Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilir.**



# Azərbaycan ordusu genişmiqyaslı təlimlərə başladı - bu, müharibə anonsudur, yoxsa...

## Ramil Məmmədli: "Bu, Ermənistana ciddi ismarışdır"
## Emil Həsənli: "Azərbaycan dövləti hər zaman müharibəyə hazırdır"

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında keçirilən genişmiqyaslı təlimlər martın 11-dən 15-dək davam edəcək. Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəşi sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirir.

Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunur.

Azərbaycan ordusunun uzunmüddətli təlimlərə start verməsi, xüsusilə təlimlərin aprel müharibəsinin üçilliyi ərəfəsinə təsadüf etməsi geniş müzakirələr doğurub. Hərbi ekspertlər bu təlimlərin belə geniş şəkildə keçirilməsinin səbəbləri ilə bağlı fərqli fikirlər səsləndirirlər. Əsas ehtimallardan biri ondan ibarətdir ki, Azərbaycan təcavüzkar Ermənistana növbəti mesajını ünvanlayır.

**Hərbi-siyasi icmalçı Ramil Məmmədli Azərbaycan tərəfin müharibəyə hazırlaşdığını düşünür:** "Azərbaycan ordusu 2019-cu ilin ilk irimiqyaslı hərbi təlimlərinə başlayıb. Təlimlərdə texnikaların təyinatlarına nəzər yetirdikdə Azərbaycan ordusunun hücuma hazırlaşdığı tam aydın olur. Müdafiə Nazirliyinin rəsmi açıqlamasından da bəlli olur ki, ordumuz təlimdə hücum əməliyyatının hazırlanmasını, düşmənə bir neçə istiqamətdə zərbə vurulmasını, onun müdafiə xəttinin yarılmasını, düşmən ərazisinin dərinliyindəki strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsini məşq edəcək. Ümumiyyətlə, Azərbaycan ordusu arsenalına daxil etdiyi silahların texniki xarakteristikası da hücum xarakterlidir. Son illərdə ordunun arsenalına daxil edilən texnikalar isə bu məqamı xüsusilə təsdiqləyir. Deməli, Azərbaycan ordusu müharibəyə hazırlaşır. Bu, əslində təbiidir, çünki növbəti vətən müharibəsində Azərbaycan hücum edən tərəf olacaq. Ona görə də ordumuz hücum taktikasını təkmilləşdirir. Elə bu məqam Ermənistana ciddi ismarışdır. Rəsmi Bakı açıq şəkildə hücum etmək niyyətini gizlətmir və bunu Müdafiə Nazirliyinin dilindən rəsmi şəkildə bəyan edir. Müharibənin qaçılmaz olduğunu ermənilər də yaxşı anlayır, amma heç bir erməni Azərbaycan ərazilərini geri qaytarmaq məsuliyyətini öz üzərinə götürmək istəmir. Belə bir vəziyyətdə - ermənilərin ciddi olaraq danışıqlardan yayındığı dövrdə Azərbaycan ordusunun hücum xarakterli hərbi təlimlərə başlamasına da ötəri baxmaq olmaz. Bu, Azərbaycanın Ermənistana bəyan etdiyi açıq mövqeyidir. Düşünürəm ki, vəziyyəti ancaq Ermənistanın danışıqlar masasına oturması və kompromisə getməsini bəyan etməsi yumşalda bilər. Əks təqdirdə, növbəti aprel əməliyyatı qaçılmaz ola bilər".

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gənclərі Maarifləndirmə İctimai Birliyinin sədri Emil Həsənli "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan ordusunun döyüş hazırlığı hər zaman nəzərə alınır:** "Təlimlər müharibə üçün çox vacibdir, xüsusilə müharibə vəziyyətində olan ölkə üçün... Bu təlimlər şübhəsiz ki, həm də mesaj xarakteri daşıyır. Azərbaycan ordusu istənilən vəziyyətdə əməliyyat keçirmək üçün bu cür təlimləri mütəmadi keçirir. İstənilən situasiyaya uyğun ordumuz əməliyyat keçirməyə qadirdir. Hər kəsi Qarabağ məsələsi maraqlandırır və əmin olun ki, silahlı qüvvələrimiz hər an çox qısa zamanda torpaqlarımızı azad etmək gücündədir, hansı fəslin olmasından asılı olmayaraq. 3 il öncəki aprel döyüşləri də göstərdi ki, Azərbaycan ordusunun bu potensialı var. Eyni zamanda yeni silahlar alırıq. Təlimlərdə bu silahlar da sınaqdan keçirilir. Heç kəsə sirr deyil ki, Azərbaycan dünyanın ən qabaqcıl ölkələrindən ən müasir silahlar alır. Eyni zamanda, özümüz də silahlar istehsal edirik. Azərbaycan dövləti hər zaman müharibəyə hazırdır. Ermənistan bu cür təlimlər keçirə bilməz. Çünki təlimlər keçirmək üçün gərək dövlətin güclü iqtisadiyyatı olsun. Eyni zamanda peşəkar nizami orduya da böyük ehtiyac var. Bunların heç biri Ermənistanda yoxdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Xaricdə təhsil proqramını ləngidən iki səbəb

## Ekspert: "Bu məsələ bundan sonra da dövlətin prioritetləri sırasında olacaq"

**2014-cü ilin sonundan etibarən neftin ucuzlaşması ilə ölkəyə gəlirlərin kəskin azalması və hökumətin bir çox sahələrdə xərcləri ixtisar etməyə məcbur qalması nəticəsində xaricdə təhsil proqramı da tarixə qovuşdu. O zamandan gənclər dövlətin bu imkanlarından məhrumdurlar.**

Son zamanlar ölkədə struktur dəyişikliyi fonunda müşahidə edirik ki, yüksək vəzifələrə də daha çox Qərb təhsili görmüş kadrlar gətirilir. Ekspertlər bildirirlər ki, xüsusilə də yeni strukturların formalaşmasında xaricdə təhsil görmüş kadrlara böyük ehtiyac var. Bəs dəyişikliklər fonunda xaricdə təhsil proqramı bərpa oluna bilərmi?

Onu da qeyd edək ki, 2018-ci ildə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qəbul olunub. Bu proqramla doktorantura mərhələsində xaricdə təhsil almaq istəyənlərə dövlət tərəfindən şərait yaradılacaq.

Bəzi ekspertlərə görə, xaricdə təhsil proqramının dayandırılmasının iqtisadi səbəblərlə yanaşı, siyasi-ideoloji səbəbləri də var. Belə ki, iqtidaryönlü ekspertlərə görə, xaricdə təhsil alan bir qrup gənc sonradan müxtəlif qruplara qoşulub, hökumət üçün potensial rəqiblərə çevrilə bilərlər. Onların fikrincə, məhz bu cür ideoloji səbəblər baxımından hökumət gənclərin müxtəlif Qərb dövlətlərində təhsil almasını, oradakı fərqli qrupların təsirinə düşməsini istəmir.

Təbii ki, bunu bütün gənclərə şamil etmək olmaz. Bu xüsusda ekspertlər hesab edirlər ki, kadr potensialının formalaşması baxımından xaricdə təhsil proqramının bərpası olduqca faydalı olar.



Kamran Əsədov

**Təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a bildirdi ki, əslində xaricdə təhsil dövlət proqramının əsas məqsədi də elə kadrlarla bağlı olub:** "Cənab prezident tərəfindən 2006-cı ildə xaricdə təhsillə bağlı dövlət proqramı imzalanan zaman da məqsəd bu olub ki, rəqabətədavamlı iqtisadiyyatın formalaşması, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası üçün bu proqram həyata keçirilməlidir. 2007-2015-ci illərdə nəzərdə tutulmuşdu ki, 5 min gənc dövlət vəsaiti hesabına gedib, xaricdə təhsil alsın. Qayıtdıqdan sonra onlar əldə etdikləri bilik və bacarıqları Azərbaycanda həmin sahələrin inkişafına yönəltməli idilər. Məhz proqram çərçivəsində 5 min nəfər nəzərdə tutulsa da, 2500 nəfər dünyanın reytinqli universitetlərində təhsil almağa getdi. Ancaq təəssüf ki, onların çox az hissəsi geri qayıtdı. Bu, məsələnin birinci tərəfidir. İkinci tərəfdən, Azərbaycan dövləti özünün Avropa və Amerika iqtisadiyyatı ilə rəqabət aparmasında, səhiyyənin inkişafında maraqlı olub. Bəllidir ki, Azərbaycan ali təhsil müəssisələri əmək bazarına cavab verən kadr hazırlığını həyata keçirmir. Azərbaycanda ali təhsil müəssisələrinin məzunları müasir tələblərə cavab vermirlər. Ona görə də dövlət özünün ehtiyacı olan sahələr üzrə addımlar atır. Bu sahələr ən çox təhsil, səhiyyə və xidmət sektorudur ki, Azərbaycanda dövlət büdcəsindən asılı vəziyyətə düşüblər".

**Ekspert bildirib ki, xaricdə təhsil bundan sonra da dövlətin prioritet məsələsi olacaq:** "Lakin bakalavr pilləsində xaricdə təhsilə göndərməkdənsə, yaxşı olar ki, magistratura, doktorantura pillələrində xaricdə təhsil üçün kadr göndərilsin. Bu, həm də dövlətin özünün gələcəkdə kadrlarını itirməməsinə səbəb olacaq. Çünki onsuz da bakalavr pilləsində o qədər də yüksək kadr hazırlığı həyata keçirilmir. Ancaq magistratura və doktorantura pilləsində konkret spesifik sahələr üzrə mütəxəssis olur. Ona görə də düşünürəm ki, yaxın illərdə Azərbaycan dövlət büdcəsinin vəsaiti hesabına yenidən təhsilin yuxarı pillələrində xaricdə təhsil bərpa oluna bilər. Onsuz da dövlətlərarası müqaviləyə görə hər il xeyli sayda azərbaycanlı gənc xarici dövlətlərin vəsaitləri hesabına həmin ölkələrdə təhsil alır. Məsələn, Macarıstanda, Çində, Yaponiyada, Litvada və digər ölkələrdə hazırda təqaüdlər verilir. Azərbaycan isə hazırda heç bir vəsait ödəmir. Mövcud dövlət proqramının sonuncu məzunu 2023-cü ildə olacaq və bununla da proqram tamamilə başa çatacaq. Gözlənilən budur ki, proqram tamamlandıqdan sonra yeni layihə hazırlansın. İndiyə qədər 2007-2015-ci illərdə xaricdə təhsil proqramına 95 milyon manat vəsait sərf edilib. Əslində bu, Azərbaycan büdcəsi üçün kifayət qədər böyük məbləğdir. Həmin kadrlar geri qayıtdıqdan sonra ölkədə müəyyən sahələrdə inkişafa nail olmalıdırlar. Ona görə də əsasən xidmət sektorlarına, rəhbər postlara Avropada, Amerikada təhsil alan şəxslər gətirilir. Həmin şəxslərin bilik və bacarıqları müasir dövrün tələblərinə uyğundur. Məsələn, kənd təsərrüfatı sahəsi üzrə baxırıq ki, İnam Kərimov olduqca böyük işlər görür. Düşünürəm ki, digər nazirliklərdə, güc strukturlarında da bu tipli islahatlar həyata keçiriləcək".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# Yüz ilin bazarlığı



Zamin HACI
zaminhaci@gmail.com

*"Vicdanı təmiz olan adam çənəsi yorulana qədər yeyə bilər"*
***(Markes, həmin əsərindən)***

**Qabriel Qarsia Markesin "Yüz ilin tənhalığı" romanına film çəkiləcək. Son günlər bu xəbəri alan hər birimiz - romanı sevənləri nəzərdə tuturam - dərin təəssüf hissi keçirdik. (Doğrusu, burada bəlkə də hamının əvəzindən təəssüflənmək yersiz idi. Fanatizm sayın, yola verin. Çünki mən bu romanı 90-cı illərdə oxuyanda duyduğum heyrəti unutmamışam). Çünki hər hansı əsərin filmi çəkiləndə oxucuların beynində formalaşmış təsəvvürlərə, romanın ürəklərdə tutduğu yerə sanki bir şey olur. Zəlzələ, tufan kimi. Baxırsan, qəhrəman sənin fikirləşdiyin adama oxşamır, təbiət daha sönükdür, hətta musiqi də yerinə düşmür. Dünyada bədii əsərlər əsasında çəkilib uğur qazanmış filmlər bu mənada çox azdır. (Məsələn, mən bu dəqiqə Miloş Formanın çəkdiyi "Qu quşu yuvası üzərindən uçarkən" filmindən başqasını yada sala bilmədim. Hərçənd şəxsi fikrimdir ki, amerikalı yazıçı Ken Kizinin eyni adlı romanı da bu filmdən qat-qata dərin və güclü romandır).**

Eyni zamanda, hansısa xarici informasiya resursunda bir yazarın təəccüblündiyini oxudum, yazmışdı ki, Markesin bu əsərinə indiyə qədər film çəkilməməsi əcaib hadisədir. Doğrudan da, roman ilk dəfə 1967-ci ildə çap olunub, o vaxtdan milyonlarla tirajla, dünyanın az qala bütün dillərinə çevrilib. Bəlkə axtarsan uydurma klinqon dilində də taparsan. Dünya kino industriyası, xüsusən Hollivud belə şeylərdən ötrü ölür, indiyədək "batırmadıqları" bədii əsər az tapılar. Bəs "Yüz ilin tənhalığı" niyə film olmayıb? Bunun səbəbi sadədir: yazıçı icazə vermirdi. Dəfələrlə Markesə yüksək məbləğlərdə müəllif haqqı təklif edib romanın kinosunu çəkmək istəmişdilər, ancaq yazıçı bütün bunları rədd etmişdi. Məhz elə mənim yuxarıda yazdığıma bənzər səbəblə. İstəmirdi oxucuların roman haqda təsəvvürləri pozulsun.

2014-cü ildə Markes 88 yaşında öləndən sonra güman etmək olardı ki, artıq rejissorlar üçün yaşıl işıq yandı. Ancaq müəllif haqqı onun iki oğluna keçmişdi və bu oğullar da insafən ləyaqətlə davranıb 5 ilə yaxın müddətdə kino sənayesinin basqılarına davam gətirdilər. Nəhayət, bazar iqtisadiyyatı, Nəsimi filmindən sitat gətirsək, "istibdad onları da sındırdı" və indi Markesin oğulları "Yüz ilin tənhalığı"nın serial formasında filmə çəkilməsi üçün "Netflix" şirkəti ilə razılaşıblar, prodüser də özləri olmaq şərtilə. Pul şirin şey imiş. Atanın 50 il müqavimət göstərdiyi tamaha oğullar 5 ildə təslim oldular. Yenə bizim folklordan iqtibas eləsək, "yaxşı oğul neylər ata romanını, pis oğul neylər ata romanını" kimi yeni məsəl qayırmaq olar.

Əlbəttə, "Netflix" bizim cındırından cin ürkən "Azərbaycanfilm" studiyamız deyil, çox yüksək keyfiyyətli, baxımlı serial və filmləri ilə tanınır, o cümlədən Markesin romanına da az-çox layiq hansısa iş ortaya qoyacaqları şübhəsizdir. Ancaq ən azından yazıçının istəyinə hörmətlə yanaşmaq lazım idi.

Əsərlərinə film çəkilməsinə qısqanclıqla yanaşan, çox vaxt təklifləri rədd edən yazıçılardan biri də Salman Rüşdidir. Onun "Gecəyarısı uşaqları" romanı 1980-ci illərin əvvəlində çapdan çıxıb, indiyə qədər Rüşdi də bu romanın film olmasına razılaşmırdı. Təzəlikcə xəbər aldıq, artıq Rüşdi də razılaşıb.

Böyük pulların qarşısında diz çökmək, sənəti, dəyərləri, prinsipləri unutmaq, deyəsən, artıq tək bizim trend deyildir, bütün dünyada yayılmışdır. Hara baxsan "meşə talasında ev" arzulayan yazıçılar, bunun üçün istənilən varlı instansiya (biznesmen, dövlət, şirkət - nə fərq edər ki?) qarşısında rəqqaslığa hazır sənətkarlar görürsən. Elə dünya idmanı böyük pullardan hansı vəziyyətə gəlib? Beynəlxalq futbol federasiyası dünya çempionatını Qatar adlı karikatur ərəb dövlətinə - qaz balonu üstündə oturmuş dövlət də gördük - 1 milyard dollara yaxın pula satıbmış. Səhrada futbol olarmı? Gülməli şeydir. Elə bil Alyaskada dəvə yarışı keçirirsən. Bir ara bizim iki dənə konkisürənimiz vardı, yadınıza gəlirsə. Həmişə axırıncı olurdular, deyəsən, buz yarıldı axırda, batdılar.




# Paşinyan özünü tələyə saldı - Qarabağ "sürprizi"

## Erməni rəhbəri İran səfərinə peşman edildi - İrəvan üçün 3 neqativ sonuc; **erməni KİV-i:** "Danışıqlardan imtina sülh prosesinin iflası və müharibə deməkdir..."

**Ermənistanın baş naziri Nikol Paşinyan hay-küylü İran səfərindən qayıdar-qayıtmaz, naqolay vəziyyətlə üzləşdi. Vəziyyətin birinci mühüm həssaslığı odur ki, erməni icması ilə Tehranda, "Qarabağ Ermənistana məxsusdur və son!" təxribatçı plakatının qaldırıldığı görüşdə N.Paşinyan bir sıra özündən razı bəyanatlar versə də, separatçı rejimi birbaşa danışıqlara qoşmaqla bağlı şərt irəli sürsə də və hətta savaşa əl atacağı təqdirdə Azərbaycanı "dünya erməniliyinin birliyi" ilə hədələsə də, bunların heç biri gözlənilən effekti yaratmadı. Əksinə, əks-effekt verdi.**

*****

Əvvəla, Güney Azərbaycanda Paşinyanın İran səfəri və orada verdiyi avantürist açıqlamalar dərhal sərt reaksiya doğurdu, Güneyin aydınlarını, milli-mədəni fəallarını hərəkətə gətirdi. O sırada izdihamlı "Qarabağ Azərbaycanındır və son!" şüarları səsləndi və Tehran rəsmiləri bütün bunları ciddiyə almalı oldular. Maraqlıdır ki, məhz həmin etirazlar fonunda Ermənistanın işğal elədiyi ərazilərin İranla (Güney Azərbaycanla) sərhəd hissəsini möhkəmlətməyə başlaması barədə xəbər yayıldı.

Beləcə, Paşinyanın Tehran səfəri əslində Dağlıq Qarabağ məsələsini bir daha güneylilərin yadına saldı. İrəvanda, üstəlik, haqlı olaraq ehtiyat etməyə başladılar ki, əgər müharibə qızışsa, bu dəfə Güneyin Quzey Azərbaycana dəstəyi qat-qat güclü olacaq.

N.Paşinyanı səfərdən sonra pərt edən ikinci mühüm məqam kimi Azərbaycanın xaric işlər naziri Elmar Məmmədyarovun Paşinyandan az sonra Tehrana daha uğurlu səfər eləməsi sayıla bilər. Belə ki, Azərbaycan XİN rəhbəri ilə görüşdə nə qədər qəribə də olsa, həm İran prezidenti Həsən Ruhani, həm İranın xarici siyasət idarəsinin başçısı Məhəmməd Zərif, həm də İran parlamentinin spikeri Əli Laricani açıq mətnlə bəyan etdilər ki, Dağlıq Qarabağ konflikti Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində öz həllini tapmalıdır. Bununla da Paşinyanın ilk rəsmi İran səfərinin nəticəsi, faktiki, sıfırlandı.

Erməni baş nazirinin səfər sonrası üçüncü uğursuzluğu onun Dağlıq Qarabağdakı kriminal rejimi danışıqların üçüncü müstəqil tərəfi kimi Azərbaycana sırımaq istəyinin tam fiasko olması oldu. Ötən həftə Azərbaycanda səfərdə olan ATƏT sədri Bakının bu mövqeyini müdafiə elədi. Ardınca Avropa Birliyinin (AB) yüksək çinli rəsmiləri Brüsseldə baş nazir Nikol Paşinyanla görüşləri zamanı onu pərt edərək, İrəvanın təklifini rədd elədilər və Paşinyana heç bir ön şərt qoymadan prezident İlham Əliyevlə görüşməyə çağırdılar.

Nəhayət, ATƏT sədri və AB yetkililərinin ardınca keçən həftəsonu ATƏT-in Minsk Qrupu həmsədrləri də elan etdilər ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların formatı dəyişdirilə bilməz, birbaşa danışıqlar Azərbaycan və Ermənistan arasında davam etməlidir. Həmsədrlərin açıqlaması həm də onu göstərir ki, danışıqların əsasını işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir. Vasitəçilər danışıqların təməli kimi Helsinki Yekun Aktına istinad ediblər. Helsinki Yekun Aktına görə isə xalqların öz müqəddəratını təyin etməsi ərazi bütövlüyünə zidd ola bilməz.

*****

**"Minsk Qrupu həmsədrlərinin bu bəyanatı Nikol Paşinyan üçün dalan vəziyyəti yaradır". "Yeni Müsavat" xəbər verir ki, bunu 1 in.am erməni portalındakı şərhində Qarnik Gevorkyan yazıb.** "Paşinyan danışıqlar prosesinin davam etməsi üçün olduqca yuxarı planka müəyyən eləmişdi - "arsax"ın (Dağlıq Qarabağın - "YM") birbaşa danışıqlarda iştirakı. Faktiki, bununla o, sonrakı danışıqlarda iştirakını şərtləndirmişdi. İndi isə həmsədrlər mahiyyət etibarilə Nikol Paşinyanın bu yanaşmasını rədd ediblər. Odur ki, sual ortaya çıxır: Ermənistanın baş naziri özünün irəli sürdüyü şərtlər təmin olunmadan danışıqlar prosesində iştirak edəcəkmi? Belə şərtlərdən imtina etməklə danışıqlara qatılmaq qoyulan hədəfdən imtina demək olacaq. Danışıqlardan imtina isə sülh prosesinin iflasıdır - buradan çıxan bütün xoşagəlməz nəticələrlə birgə", - deyə müəllif qeyd edib.

"Xoşagəlməz nəticə" isə ilk növbədə Ermənistanın səbəbkar olduğu müharibənin qızışması anlamına gəlir. Deməli, N.Paşinyan faktiki surətdə, özünü tələyə salıb...

*****

Rusiyanın satelliti olan Ermənistanın və onun siyasi rəhbərliyinin bu arada Qərbə, NATO-ya boylanmaları, Moskvanı qıcıqlandıran ikili oyunları davam edir. Bu da növbəti fakt: Ermənistan Müdafiə Nazirliyinin müdafiə siyasəti idarəsinin rəisi Levon Ayvazyan dünən bildirib ki, NATO Ermənistanın mühüm tərəfdaşı olaraq qalır. Onun sözlərinə görə, ikitərəfli əməkdaşlıq bir çox sahələr üzrə effektiv şəkildə davam edir.

"Bizim bir neçə istiqamətimiz var ki, o istiqamətlər üzrə Alyans bizə mütəxəssis tövsiyələri verir. Biz həmçinin NATO ilə sülhməramlı missiyalar çərçivəsində əməkdaşlığı davam etdirəcəyik. Bu missiyalar Alyans üzvü olan ölkələrin silahlı qüvvələri ilə əməkdaşlıq imkanlarının səviyyəsini qaldıracaq", - deyə o, əlavə edib.

Az öncə Ermənistanın xarici işlər nazirinin müavini Qriqor Hovanisyan İsraildə Ermənistan səfirliyinin açılması üçün hazırlıqlara start vermək istədiklərini söyləmişdi.

Aydındır ki, əsas hədəf İsraildən silah-sursat almaq olmasa da (buna Ermənistanın imkanı yoxdur və heç Rusiya da qoymaz) heç olmasa, dinamik inkişafda olan Azərbaycan-İsrail strateji əməkdaşlığına xələl gətirməkdir. Amma xam xəyaldır. Həm də o səbəbə ki, İsrailin özü buna imkan verməz. Çünki Ermənistandan fərqli olaraq, Azərbaycan yəhudi dövləti üçün çox böyük dəyərdədir. Söhbət təkcə silah ticarətindən getmir...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

**Eskişehir Osman Qazi Universitetində "Rusiya-Türkiyə münasibətləri-dünəndən bu günə" adlı panel keçirilib. Paneldə rusiyalı politoloq, avrasiyaçılıq ideologiyasının yaradıcılarından olan Aleksandr Duqin universitetin müəllim və tələbələrinə, eləcə də Eskişəhər yönətiminə iki ölkənin münasibətləri ilə bağlı mühazirə oxuyub.**

# Duqinin Türkiyə-Rusiya, slavyan-türk birliyi ideyası - realdırmı...

## **Politoloq:** "Bu iki dünya siyasi anlamda birləşsə, vahid Avrasiya imperiyasına çevriləcək"



A.Duqin bildirib ki, Türkiyə ilə strateji münasibətlər Rusiya siyasətinin ən önəmli nöqtələrindən biridir. Daha sonra Duqin son bir neçə əsrlik tarixi analiz edərək Rusiyanın da, Türkiyənin də hər zaman böyük ambisiyalarının olduğunu, bu ambisiyaları gerçəkləşdirməkdə Rusiyanın önünü Türkiyə, Türkiyənin önünü Rusiyanın kəsdiyini deyib: "Rusiya ilə Türkiyə çarpışırkən bundan yalnız üçüncü ölkələr qazanır. Ancaq biz bərabər addımlar atsaq, hər iki dövlət qüvvətlənə bilər. Bu bizim tarixi missiyamızı gerçəkləşdirməyimiz üçün zəmin yaradar. Mədəniyyətlərimizin yaxınlığını anlayan ruslar və türklər bunun önəmini çox yaxşı bilir. Bilməliyik ki, hissləri düşüncələr tamamlayanda bu, siyasətə, strategiyaya çevrilir.

Hər iki ölkənin intellektualları ölkələrimizə yaxınlaşmaq üçün yardım etmək istəyiriksə, Türkiyə-Rusiya dialoqunu çoxqütblü dünya modelinə uyğun davam etdirməliyik.

Düşünürəm ki, ən qısa zamanda Moskvada, Sankt-Peterburqda, Ankarada, İstanbulla institutlar yaradılmalıdır. Bizim yaxınlaşmağımız üçün toplumlar bir-birini tanımalıdır. Biz bir-birimizin mənəvi dəyərlərini anlamalıyıq. Münasibətlərin yeni formatını yaradaraq fərqliliklərimizi və oxşarlıqlarımızı çox dərin müzakirə edə bilərik. Ruslar anlamalıdır ki, Türkiyə tikinti, turizm, tərəvəz yox, ondan öncə Yasəvi, Yunus Əmrə, Rumidir. Bizim üçün Puşkin kimdirsə, türklər üçün Rumi odur. Rusların bu haqda bilgisi çox azdır - biz hətta özümüzü də yetəri qədər tanımırıq. Biz tariximizi bilmirik. Batının təsiri ilə bu gün tarixi ilə maraqlanmayan, texnologiyaların əsiri bir nəsil yetişib. Türkiyə böyük mədəniyyətdir. İntellektualların qarşılıqlı səfərləri, tələbə mübadiləsinin sürətləndirilməsi ilə bir-birimizi daha yaxından tanıya bilərik. Münasibətlərin dərinləşəcəyi haqqında deyilənlər formal olmamalıdır.

Çoxqütblü dünyanın memarı Rusiya və Türkiyə olmalıdır. Tarix boyu nəhəng imperiyalar quran iki böyük xalq bunun öhdəsindən gələ bilər".

Bəs A.Duqinin təklif etdiyi ittifaqın, birliyin reallaşması, uzunmüddətli ittifaqa, dünyadakı proseslərə təsir gücündə olan yeni qütbə çevrilməsi mümkünmü?

**Politoloq Əhəd Məmmədli "Yeni Müsavat"a öncə bildirdi ki, Azərbaycan mediasında Duqinə olduğundan daha çox önəm verilir. Duqinin əgər həqiqətən Putinə təsir imkanları varsa, bunu qardaş Türkiyədə bilməmiş olmazlar:** "Duqinin avtobioqrafiyası, fəaliyyəti ilə tanış olan adam olaraq deyə bilərəm ki, o, akademik adamdır. Ötən əsrin 90-cı illərində siyasətlə məşğul olmağa cəhdlər edib. Deputatlığa namizədliyini verib. Deputatlığa namizədliyini verdiyi dairədə sonuncu yerləri tutub. Partiyaçılıqla məşğul olub, o da uğursuzluqla nəticələnib. Paralel akademik-dini fəaliyyətlə məşğul olub. Ortodoks rahibdir. Köhnə rus arzusu olan İstanbulu rus-slavyan imperiyasının paytaxtı görür. Yəni bu adam heç də Türkiyənin səmimi dostu deyil. Duqin rus imperializminin böyük gələcəyini Avrasiya çoğrafiyasına sahiblənməkdə görür və bütün bunları türk dünyasının tamamilə ələ alınmasında görür. İstanbulsuz nə Türkiyə, nə də Turan var. Hələ çar dövründən rus düşünən cəmiyyəti iki yerə bölünürdü: qərbçilər və slavyanofillər. Duqin həmin o slavyonafil dünya görüşünün daşıyıcısıdır. Slavyanofillər Qərbi sevməzlər, rus imper-dövlət təfəkkürünün düşməni sayarlar. Hətta bəziləri Roma-Qərb dünyasına qarşı ortadoks-slavyanların türk-müsəlman çoğrafiyası ilə birləşməyi məqbul sayırlar".

**Dünyanın çoxqütblü mərhələyə keçdiyini qeyd edən politoloq bildirdi ki, dirçələn yeni Türkiyə də Rusiyasız bu çoxqütblü dünyada bir tərəfdir:** "Ona görə Böyük Britaniya da indidən Türkiyəni öz tərəfinə çəkmək istəyir. Rusiyada da Türkiyəni yanlarında görmək istəyən ciddi qüvvələr var. Duqin də həmin o qüvvələrin regionda sözçülərindəndir. Türkiyə gücləndikcə, böyüdükcə Qərb və Rusiya arasında Türkiyəni öz tərəflərinə çəkmək uğrunda savaş daha da böyüyəcək. Təbii, Türkiyə də öz oyununu oynayıb özünə tərəfdaş əldə edəcək. Ümumiyyətlə isə tarixə nəzər yetirsək, türklərlə slavyanlar ayrı din mənsubiyyətinə malik olsalar da dünyada bir-birilərinə ən yaxın etnosdurlar. Türklərlə slavyanlar əsrlərdir bir yerdə, bir dövlətlərdə, imperiyalarda yaşayıblar, yaşayırlar. Hər bir slavyanda türk qanı var, hər bir türkdə də slavyan tarixi mövcuddur. Bütün bunlardan irəli gələrək düşünürəm ki, Duqinin bu ideyasını, təklifini ən azı dəyərləndirməyə dəyər. Turan coğrafiyasının böyük hissəsi hələ də Rusiyanın tərkibindədir. Slavyan torpaqları olan Balkanlar da əsrlərlə Türkiyənin tərkibində olub. Slavyan-Türk sintezi çoxdandır var. İndi bu iki dünya siyasi anlamda birləşsə, vahid Avrasiya imperiyasına çevriləcək. Bu da Qərb və Çin arasında üçüncü nəhəng qüvvə olacaq".

**Ə.Məmmədli vurğuladı ki, Rusiya-Türkiyə müttəfiqliyi ilə böyük, vahid Avrasiya məkanının qurulması hələ elə də real görünməsə də bu yöndə artıq atılan addımları görmək olar:** "Bu proje baş tutsa, yaxın 50 ildə Rusiya bir dövlət olaraq da ortadoks-slavyan ölkəsindən əsasən türk-müsəlman ölkəsinə çevriləcək. Hər aspektdən baxanda Türkiyə-Rusiya birliyi Azərbaycanın mənafeyinə də cavab verir. Türk-slavyan birliyində Azərbaycanın önəmli yeri və iştirakı olacaq. Ermənistanın isə heç bir yeri və önəmi qalmayacaq. Bununla da bir dövlət kimi Ermənistan olmayacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Əgər yaşlı nəsil redaktorlar olmasa...



**Hüseynbala SƏLİMOV**

**"Bəy, burada Rusiyaya "sataşmısınız". Burada isə İranla bağlı "mübahisəli" fikir var. İnciməyin, üzrlü sayın, verə bilməyəcəyik". Bəli, təxminən altı-yeddi ildir ki, belə iradlar eşitməyə başlamışıq. Ən pisi isə budur ki, getdikcə onları daha çox eşidirik.**

Deyə də bilmirsən ki, oğlum, qardaşım, vallah, yaşımın elə vaxtıdır ki, mənə kiməsə sataşmaq daha yaramaz: 99 faiz "soyuq təhkiyə" üslubunda, olanı yazmağa çalışırıq, hətta azacıq mübahisəli fikir olanda "məncə", "mənim fikrimcə" yazırıq ki, kimsə bizə aid olan məsuliyyəti bölüşmək məcburiyyətində qalmasın.

Yazıya yalnız cəmi bircə faiz emosiya qatırıq ki, azca "oynaqlı" forma alsın, oxunsun. Əslindəsə media elmi - riyaziyyat dərgisi deyil ki, burada artıq nöqtə belə olmasın; media düşündürməlidir, mübahisə - diskussiya açmalıdır, operativ xəbərlər verməlidir, tənqid etməlidir, nəyisə araşdırmağa çalışmalıdır.

O ki qaldı bütün bunların formasına, bir daha deyirik, biz həm də "Azadlıq" radiosunun məktəbini keçmiş adamlarıq: axır illərdə burada elə şeylərə "ilişirdilər" ki, bir cümləni yazmazdan əvvəl on dəfə götür-qoy edirdin ki, bunu mən ən azı iki arqumentlə sübut edə bilərəmmi?..

Əlbəttə, bizim öz milli mediamızda əvvəllər qat-qat artıq sərbəstlik vardı, hətta onu da etiraf edirik ki, bəzən bu sərbəstlik tamam bayağı forma da alırdı, bir çox hallarda eyni səhifədə arqumentli, soyuq analitik təhlillə "gopologiya", doğru-dürüst informasiya ilə ağ yalan yanaşı, eyni bir səhifədə yerləşirdi...

Heç sözsüz, belə qala bilməzdi, vəziyyət dəyişməli idi. Amma indiki - hazırkı vəziyyət də tamam anormallıqdır: Azərbaycan mediasında bir vaxt olan total söyüşçülük, qaragüruhçuluq, "ittihamçı-müstəntiqlik üslubu" indi total yaltaqlığa çevrilib.

Bu isə eyni vərəqin iki üzdür - bir vaxt müxalif və hətta müstəqil medianın işi-gücü gecə-gündüz hakimiyyəti yamanlamaq, bəzən də şərləmək idisə, indi tərsinə çevrilibdir; "müxalifət" bütün ənənəvi informasiya tribunalarından kənarlaşdırılıb və mövcudluğunu saxlamaq naminə elliklə hakimiyyətin tərəfinə keçən media indi də gecə-gündüz "müxalifəti", özü də reallıqda mövcud olmayan müxalifəti söyür və bu da qaranlıq otaqda söyə-söyə qapqara pişik axtarmağa bənzəyir, özü də hamı gözəlcə bilir ki, burada heç bir pişik-filan yoxdur.

Bu haqda çox düşünmüşəm və axırda qandığım bu olub ki, vəziyyəti idarə etməyin bir texnologiyası da siyasi maketçilikdir, reallıqda mövcud olmayan siyasi konstruksiyaların mövcudluğu təəssüratını yaratmaqdır ki, boşluqlar olmasın. Odur ki, çağdaş media üslubu indi tamam buna köklənib: artıq bu müstəvidə peşəkar "təhlilçi" və "politoloq"lar yetişib ki, bunların işi-peşəsi o adamları yamanlamaq və söyməkdir ki, bunları bəlkə heç öz qohum-qardaşı belə nəinki lider, heç ağsaqqal da saymır.

Elə bu səbəbdən də illərdir ki, nəinki müxalifətdən yazmırıq, heç bu sözü işlətməməyə belə çalışırıq, işlədəndə də onu dırnaqda veririk, çünki belə şey reallıqda yoxdur.

Mənə etiraz edə bilərlər ki, heç ola bilərmi ki, müxalifət olmasın? Ola bilir - bir az təəccüblü olsa da...

Cəmiyyətdə müxalif ovqat, müxalif düşüncə bir şeydir, institusional müxalifət isə tamam başqa şey. Müxalifət əslində cəmiyyətdəki narazı ovqatın institusional təcəssümüdür. Elə dövr olur ki, o, bir ictimai-siyasi institut kimi mövcud ola bilmir. Əlbəttə ki, belə vəziyyətdə də müəyyən fəallar olur, amma onlar daha çox seyrək dissidentlər kimi tanınırlar...

Nə isə. Qayıdaq bir daha bizim milli mediaya. Bir neçə ay bundan əvvəlin söhbətidir. Bir gənc "redaktor"un müsahibəsini oxuyurdum. Deyirdi ki, bizim nəslin boynuna böyük missiya düşübdür - medianı yaşatmaq missiyası! Mən həmin "redaktorla" bir az əməkdaşlıq etmişdim. Bəlkə də inanmayacaqsanız, amma bu adam üç nöqtə görəndə belə soruşurdu ki, bu, nə deməkdir, bununla nə demək istəyirsiniz?..

İndi mən bir neçə qəzetlə - saytla (təəssüf, qəzetlər artıq demək olar ki, sayt şəklində mövcuddur!) əməkdaşlıq edirəm. Bəs qənaətim nədir? Nə yaxşı ki, hələ mediada 80-ci illərin sonlarında, 90-cı illərin əvvəlində mediaya gələn bir-iki redaktor qalıbdır. Yalnız onların rəhbərlik etdikləri saytlarda - qəzetlərdə hələki nəsə yazmaq, hansısa qeyri-şablon bir fikir demək mümkündür...

Bu adamlardan sonra nə olacaq? Doğrusu, bilmirəm. Çox təəssüf, heç birimiz əbədi deyilik, amma hər bir nəsildən sonra da qalmalı, yaşamalı olan şeylər olmalıdır...

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# Qarabağ qazisi pensiyasını ala bilmir

## Fikrət Firidova verilməli olan 11 illik artım pensiyası ödənilmir, dövlət qurumundan isə deyirlər ki...

**"Mən Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə fəal iştirak eləmişəm. 706 saylı hərbi hissədə əvvəlcə sıravi, sonra hərbi hissə komandirinin əmri ilə 1993-cü il, yanvarın 1-dən bölük komandiri vəzifəsinə təyin olunmuşam. Həmin il yanvarın 14-də ağır yaralanmışam. 2-ci qrup əliləm" .**



Fikrət Firidov

Bu sözləri "Yeni Müsavat"a ünvanladığı məktubda Bakının Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, "AB" yaşayış sahəsi, bina 127, mənzil 63-də yaşayan Qarabağ qazisi Firidov Fikrət Talış oğlu yazıb.

Onun sözlərinə görə, qanuna əsasən bölük komandiri vəzifəsindən hərbi qulluqçu kimi təqaüd almaq hüququ məhz 2004-dən yaranıb. Qarabağ qazisi bildirir ki, ona pensiya təyin edilərkən bölük komandiri yox, sıravi əsgər kimi ayrılıb.

"Pensiya hüququmu bərpa etmək məqsədilə bölük komandiri vəzifəsində müddətdən artıq xidmət etmiş hərbi qulluqçu kimi pensiya təyin olunması üçün məlumat vərəqəsini Dövlət Sosial Müdafiə Fondunun hərbi qulluqçularla və xüsusi rütbəli şəxslərlə iş idarəsinə göndərmişəm. 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsinin 2017-ci ildə qətnaməsi ilə iddia tələbim təmin olunub. Bakı Apelyasiya Məhkəməsi də bu qətnaməni qüvvədə saxlayıb. Mənə təyin edilmiş pensiya artımını 2015-ci ildən 2018-ci il tarixdən olan hissəsi 1 il ərzində aylıq pensiyama əlavə edilib, ödənilib. Amma ödənilməli olan 2004-cü ildən 2015-ci il tarixə qədərki pensiyam verilməyib. Dəfələrlə şifahi və yazılı müraciətlərimə baxmayaraq, 11 illik bölük komandiri pensiyam ödənilməyib", - deyə Qarabağ qazisi məktubunda yazıb.

**F.Firidov xatırladıb ki, konstitutsiyanın 149-cu maddəsinə əsasən fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil olunur:** "Ona görə 2-ci qrup Qarabağ əlili olmağımı və xəstəliyimlə əlaqədar müalicəyə ehtiyacımın olduğunu nəzərə almağınızı, 2004-dən 2015-ci ilə qədər hesablanmış pensiyamın ödənilməsini təmin etməyini xahiş edirəm. Mən vətən uğrunda sağlamlığımı itirmişəm. İndi müalicəm üçün maddi imkanım yoxdur. Məhkəmələrin qətnaməsi var, mənə hesablanmış 11 illik pensiyam ödənilməlidir. Mən cənab prezidentdən, Mehriban xanımdan, nazir Sahil Babayevdən köməklik göstərilməsini xahiş edirəm".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı qəzetimizə bildirdi ki, vətəndaşın işi barədə DSMF-yə sorğu göndəriləcək, məsələ aydınlaşdırılacaq.

Problemi diqqətdə saxlayacağıq.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "İndi çiyinlərimizə daha böyük yük düşür..."

## Tanınmış mədəniyyət xadimləri prezidentlə görüşdən sonrakı gözləntilərdən danışdılar

**"Azərbaycanda geniş yayılmış bir stereotip var ki, sovet dövründə çəkilən filmlər daha yüksək səviyyəli idi, müstəqillik illərində kinematoqrafiya zəifləyib. Əslində mübahisəli fikirdir. Müstəqilliyin ilk dövrlərində çox yaxşı filmlər çəkilib. Lakin doğrudursa, indi kinomuzun, bütövlükdə mədəniyyətimizin çiyinlərinə daha böyük vəzifələr düşür".**

**Bu fikirləri "Yeni Müsavat"a əməkdar incəsənət xadimi, rejissor Ayaz Salayev** prezidentin mədəniyyət xadimləri ilə görüşü, sonrakı gedişat, kino sənayesinə dövlət tərəfindən 5 milyon manat ayrılması haqda danışarkən bildirdi. Onun fikrincə, müstəqil ölkənin müstəqil kinosunu və mədəniyyətini yaratmaq lazımdır: "Mən özüm geniş məqalə hazırlayıram. Kinoya ayrılan maliyyə çox yaxşı vəsaitdir, yaxşı filmlər çəkmək olar. Sadəcə, qarşıda məqsəd dayanmalıdır. Əfsus ki, kinoda elə adamlar var ki, SSRİ həsrəti ilə yaşayır, məsuliyyəti dərk eləmək istəmirlər. Mən bunu belə bənzədərdim: yataqxanada yağ-çörək yeməkdənsə, öz mənzilində yavan çörək yemək yaxşıdır".

**Rejissor Azərbaycan kinosunun hansı mövzulara müraciət etməli olduğunu açıqladı:** "Dəfələrlə demişəm ki, İran filmi heç nədən xaruqələr yaradır, səviyyəli filmlər çəkir. Məsələn, əsgər Fərhadi kiçik mövzudan böyük filmlər çəkir. Təbii ki, biz İran kinosunun təsirinə düşməməliyik. İndi zamanı, dövrü filmdə əks etdirməliyik. Zənnimcə, dünya problemləri ilə yaşayan azərbaycanlı obrazı yaratmaq istəyərdim. Ümumiyyətlə, bu, təkcə kinoya aid deyil, mədəniyyətə aiddir, sənətkar öz ilahi missiyasını dərk eləməlidir, müstəqil mədəniyyətin yaradılması məsuliyyəti olmalıdır. Mən sizə bir məsələni deyim, kinoya kimlər ki, sadiq qaldılar, onlar doğmalaşdı. Mən özümü bu ailənin bir üzvü kimi hiss edirəm. Ona görə də müstəqil mədəniyyətin üzərinə yük düşür, gələcəyə cəsarətlə baxmaq lazımdır".



Ayaz Salayev



Afaq Bəşirqızı



Mənsum İbrahimov

A.Salayev prezidentin kinoya ayırdığı maliyyədən sonra kinostudiyada müzakirələr aparıldığını bildirdi. Bundan sonra hansı filmlərin çəkiləcəyi məlum olacaq.

**Xalq artisti, Azərbaycan Dövlət Musiqili Teatrının aparıcı aktrisası Afaq Bəşirqızı qəzetimizə bildirdi ki, artıq prezident tərəfindən üç sərəncam verilib:** "Mən xahişimi elədim, problemləri dilə gətirdim, sağ olsun cənab prezident, nəzərə aldı. Artıq aktyorların maaşının artırılması gözlənilir, mənzillərlə təmin olunması istiqamətində işlər həyata keçirilir. Mən bu barədə çox danışmağı sevmirəm. Dövlətimizin rəhbərindən xahiş elədim, o da sərəncamlar verib, addımlar atılır".

**Tanınmış xanəndə, xalq artisti Nəzakət Teymurova 525.az-a bildirib ki, ilk dəfə idi belə bir açıq, səmimi mühitdə görüş baş tuturdu:** "Yeni bu görüşdə daha çox məhz mədəniyyət və incəsənət adamlarının özlərinin öz dillərindən onları düşündürən, narahat edən məsələlər, onların daşıyıcısı olduğu sahənin problemləri, həllini gözləyən məqamlar dinlənilirdi. Özünüz də şahidsiniz ki, illərdir Azərbaycan muğamının, Azərbaycan mədəniyyətinin inkişafı, dünyaya yayılması ilə bağlı hansı işlər görülür. Bununla yanaşı, müəyyən məsələlər var ki, onlar da həllini gözləyir və bu görüşün gözəlliyi də onda idi ki, məhz həmin məqamları, məsələləri dilə gətirmək, qeyd etmək üçün tam açıq, səmimi bir şərait yaradılmışdı".

**Xalq artisti Mənsum İbrahimov deyib ki, AzTV-də bir qədər canlanmaya ehtiyac var:** "Bayağı musiqilər, bayağı musiqiçilər, bayağı söhbətlər daha çox özəl kanallarda olur, baş verir. İnsanlar da bununla bağlı zaman-zaman öz narahatlıqlarını, etirazlarını ifadə edirlər. Bu baxımdan, artıq özəl kanallarda da belə bədii şuralara ehtiyac var. Bununla yanaşı, görüşdə gənclərin, gənc sənətçilərin, xüsusilə aktyorların durumu dilə gətirildi. Çünki digər sahənin insanları ilə müqayisədə kino sahəsinin insanları bir qədər çətin durumdadır, əməkhaqları istənilən səviyyədə deyil. Onlar əslində çox fədakar insanlardır. Bu baxımdan onların da məsələləri dilə gətirildi və dövlət başçısı tərəfindən diqqətə, qeydə, nəzərə alındı. Ona görə hesab edirəm ki, bu görüşün Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafında çox böyük rolu olacaq".

Qeyd edək ki, görüşdə iştirak edən Tahir və Cabir İmanov qardaşlarının bəstəkar Süleyman Ələsgərovun adına küçə verilməsi barədə prezidentin tapşırığı olub və küçə seçimi edilir. Bəhram Bağırzadənin Hacı Zeynalabdin Tağıyevə heykəl qoyulması təklifi qəbul olunub, yer seçimi üçün müzakirələr gedir. Mədəniyyət naziri Əbülfəs Qarayevin sözlərinə görə, bu formatda keçirilən görüşdə hansısa mədəniyyət və ya incəsənət xadimi kənarda qalıbsa, onlardan üzr istəyir, növbəti dəfə mütləq nəzərə alınacaq.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Bu gün Yel çərşənbəsidir

**Bu gün boz ayın üçüncü çərşənbəsi olan Yel çərşənbəsidir. Novruz ölkəmizdə xüsusi mərasim, adət-ənənələr və təmtəraqla qeyd edilən ən qədim və milli bayramdır. Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlər sistemində bu bayramın xüsusi yeri var. Novruz bayramından öncə dünyanın yaranmasında iştirak edən dörd ünsürə aid edilən dörd çərşənbə də qeyd edilir. Bu gün həmin dörd ünsürdən birini simvolizə edən "Yel (külək, hava) çərşənbəsi"dir. Bəs yel çərşənbəsinin adətləri nələrdir? Onunla bağlı hansı deyimlər, inanclar mövcuddur?**

Bu haqda "Yeni Müsavat"a açıqlama verən AMEA Folklor İnstitutu, "Folklor və yazılı ədəbiyyat şöbəsi"nin aparıcı elmi işçisi, Filologiya üzrə fəlsəfə doktoru Əpoş Vəliyev deyir ki, bu çərşənbə xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Hava çərşənbəsi" kimi də tanınır: "İnanclara görə, bu çərşənbədə oyanan yel, külək oyanmış suyu, odu hərəkətə gətirir. Daha sonra su, od və külək birlikdə torpağı oyadır. Torpaq hərəkətə gəlir, isinir".

**Adətlərə gəlincə, Ə.Vəliyev bildirdi ki, Yel çərşənbəsi günü həyətlərdə tonqallar qalanır, evlərdə plov (aş), südlü plov, lobyalı aş, bulqur aşı və s. bişirilir:** "Süfrəyə daha çox quru meyvələr və dənli bitkilərdən hazırlanmış nemətlər düzülür. Evlərdəki yorğan-döşək, xalça-palaz, geyimlər həyətə çıxarılır, barıların, məhəccərlərin üstünə sərilərək çırpılır, təmizlənir. İnama görə, yel çərşənbəsində yorğan-döşək, xalça-palaz, geyimlər havaya verilərsə, təmizlənər, paklanar".

Bu çərşənbə ilə bağlı xalq inanclarına toxunan həmsöhbətim qeyd etdi ki, "Yel baba" mərasimi öz kökü etibarilə əcdadlarımızın Yel Tanrısına etiqadı ilə bağlıdır.




**Novruz və çərşənbələrin adətlərindən biri də rəhmətə gedən yaxınların qəbirlərini ziyarət etməkdir:** "Bölgələrdə, xüsusilə də Naxçıvanda Yel çərşənbəsi qəbirüstü ziyarət, əcdadları, vəfat edən yaxın qohum-əqrəbanın yada salınması günü kimi də qeyd edilir. Məzarların üstü təmizlənir, ziyarət edilir, üzərində şam yandırılır, səməni qoyulur, vəfat edənlərin ruhuna dualar oxunur. Sonra evdə ehsan hazırlanır. Ehsan yeməyi əsasən plov, halva və s. olur. Ehsan qohum-əqrəbalara, qonşulara paylanır. Qadınlar il ərzində yas düşən evləri gəzərək, vəfat edənlərin ailə üzvlərinə, yaxınlarına başsağlığı, təsəlli verir, mərhuma Allahdan rəhmət diləyirlər. Həmin gün həm də "yasdan çıxarma" sayılır. Yasdan çıxarmadan sonra yas saxlamaq məqbul sayılmaz, artıq deyərlər ki, toy, xeyir işlər etmək lazımdır.

Küləyin xalqımızın üzərindən hüznlü, qəmli günləri uzaqlara aparması, xoş günləri, xeyir-bərəkət, sülh və əmin-amanlıq gətirməsi diləyi ilə Yel çərşənbəniz mübarək olsun!

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Azərbaycanın yaz hücumu - niyə də olmasın?

## Ermənistanın dinc nizamlamanı əngəlləməsi hərbi variantı gündəmə gətirib; **rusiyalı şərhçi:** "Paşinyanın təxribatçı mövqeyi yaz istiləşməsi ilə konfliktin "donu"nun açılması riskini artırır..."

**Dünən - martın 11-dən etibarən 15-dək Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı təlimi başlayıb. Xəbər verdiyimiz kimi, təlimlərə 10 min nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəşi sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.**




Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirəcək. Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunacaq.

Bu, əslində son zamanlar Qarabağa dair sülh danışıqlarını özünün absurd və radikal bəyanatları, tələb-təklifləri ilə tormozlayan işğalçı tərəfə, Nikol Paşinyan hökumətinə bir xəbərdarlıqdır ki, atəşkəs rejimindən sui-istifadə hansı fəsadlara gətirə bilər. Üstəlik, qış mövsümü başa çatır və havaların istiləşməsi ilə Azərbaycanın növbəti uğurlu hərbi əməliyyatı bütün ciddiliyi ilə gündəmə gələ bilər. Çünki Bakı işğal rejiminə sonsuzadək dözmək niyyətində deyil.

*****

Rəsmi İrəvan isə müxtəlif bəhanələrlə konstruktiv danışıqları ertələməyə cəhd edir. Bu bəhanələrdən biri də Dağlıq Qarabağdakı separatçı rejimi danışıqların üçüncü müstəqil tərəfi kimi Azərbaycana sırımaq istəyi ilə bağlıdır. Təbii ki, Bakı buna razılıq verməyib, heç vaxt da verməyəcək. Yaxud Qarabağ ermənilərı birbaşa danışıqlara qoşularsa, o zaman Qarabağın azərbaycanlı icmasının da qoşulmalı olduğunu açıq bəyan edib.

Ötən həftə Azərbaycanda səfərdə olan ATƏT-in icraçı sədri Bakının bu mövqeyini müdafiə elədi. Ardınca Avropa Birliyinin (AB) yüksək çinli rəsmiləri Brüsseldə baş nazir Nikol Paşinyamla görüşləri zamanı onu pərt edərək, İrəvanın təklifini rədd elədilər və Paşinyana heç bir ön şərt qoymadan prezident İlham Əliyevlə görüşməyi məsləhət gördülər. Nəhayət, ATƏT sədri və AB yetkililərinin ardınca keçən həftə sonu ATƏT-in Minsk Qrupu həmsədrləri də elan etdilər ki, Qarabağ münaqişəsi ilə bağlı danışıqların formatı dəyişdirilə bilməz.

Analitiklərə görə, sonuncu bəyanat Ermənistanın apardığı populist siyasətin uğursuzluğunun növbəti nümunəsidir. Həmsədrlərin açıqlaması göstərir ki, danışıqların əsasını işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir. Həmsədrlər danışıqların təməli kimi Helsinki Yekun Aktına istinad ediblər. Helsinki Yekun Aktına görə isə, xalqların öz müqəddəratının təyin etməsi ərazi bütövlüyünə zidd ola bilməz.

*****

Yaranmış vəziyyətdə artıq 10 aydır hakimiyyətdə olan Nikol Paşinyanın hansı qərarı verəcəyi çox maraqlıdır. Hər halda, sülh danışıqlarına bu cür əngəllər yaratmağın, vaxtı uzatmağın dinc nizamlama prosesindən imtina və müharibənin labüd olması anlamına gəldiyini Paşinyan dərk eləməmiş deyil. Odur ki, seçim məhz onundur.

"Bu gün Dağlıq Qarabağ probleminin nizamlanması məsələsində güzəştlərə getmək üçün Nikol Paşinyana daxili siyasi vəziyyətin dayanıqsızlığının əngəl ola biləcəyindən danışmağa dəymir. Ona görə ki, nizamlama və anlaşma üçün konkret yanaşmalar hazırlamaqdan ötrü erməni baş nazirin vaxtı artıqlaması ilə olub. Aprel çevrilişindən, Serj Sərkisyanın Paşinyana məğlub olmasından təxminən 1 il ötüb".

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə rusiyalı siyasi şərhçi Mixail Belyayev "Vestnik Kavkaza" portalında getmiş təhlili məqaləsində yazır.**

**Müəllifin sözlərinə görə, keçən təxminən 1 il müddətində İrəvandakı hakim komanda ölkə üçün əsas xarici siyasət təhdidi sayılan Dağlıq Qarabağ konflikti kontekstində öz strategiyasını artıq formalaşdırıb: "Özü də yeni erməni strategiyası yetərincə dəqiq ifadə olunub:** Dağlıq Qarabağ Azərbaycanla danışıqlarda "üçüncü bərabər hüquqlu tərəf" olmalıdır. Nizamlamanın Dağlıq Qarabağ ətrafında ərazilərin Azərbaycana qaytarılmasını nəzərdə tutan "sülh əvəzinə torpaq" formulu isə Paşinyan tərəfindən rəsmən istisna edilib. Yəni bu gün erməni tərəfi hətta Dağlıq Qarabağ ətrafında erməni silahlı qüvvələrinin işğalı altında olan ərazilərin qaytarılmasını belə mümkün saymır. Bunun ardınca Bakıda haqlı sual yaranıb: belə yanaşmanı İrəvanın sülh danışıqlarından rəsmən imtinası kimi qəbul eləmək lazımdırmı?"

**Analitik qoyduğu suala yenə erməni rəsmisinin dili ilə cavab verib:** "Bu suala Ermənistanın Xüsusi Xidmətinin direktoru Artur Vanetsayn a öncə işğal altındakı Füzuli rayonunda (Dağlıq Qarabağdan kənardadır - müəllif.) olarkən cavab verib. Deyib ki, "biz Azərbaycana bir qarşı torpaq da verməyəcəyik". Üstəlik, o, tanınmamış "DQR"in rəhbərliyi ilə Araz boyu ərazilərin, azərbaycanlıların zorla vurulub çıxarıldığı torpaqların erməni əhali ilə məskunlaşdırılması məsələsini müzakirə edib".

**Mixail Belyayev erməni tərəfinin bu qəbildən bəyanatlarını və mövqeyini müharibəni yaxınlaşdıran təhlükəli siyasət kimi xarakterizə edib və məqaləsinin sonunda Azərbaycan ordusunun dünən başlayan 5 günlük genişmiqyaslı təlimlərinə diqqət çəkib.** "Təlimlər zamanı Azərbaycan ordusu qarşısında qoyulan hədəf və vəzifələr öz-özlüyündə hər şeyi deyir. Paşinyanın təxribatçı mövqeyi nəticəsində Dağlıq Qarabağ ətrafında yaranan siyasi dalan vəziyyəti yaz istiləşməsi ilə bağlı Azərbaycan-Ermənistan konfliktinin "donu"nun açılması riskini artırır. Özü də bu zaman Bakı "konstruktiv tərəf" kimi obyektiv diplomatik üstünlüyə malikdir, nədən ki, erməni rəhbərlik diplomatik meydanda həddən artıq diletant səhvlər buraxıb və daxildə taktiki siyasi maraqlar naminə danışıqlar prosesində kobud "manevr" edib".

Rusiyalı təhlilçinin də şərhindən görünür ki, əgər münaqişə bölgəsində yeni hərbi toqquşma baş verərsə, onun məsuliyyəti tamamən işğalçı tərəfin, Paşinyan hökumətinin üzərində qalacaq - bu toqquşmanın bütün acı nəticələri ilə birgə...



## ATƏT təmas xəttində növbəti monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, bu gün - martın 12-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Müdafiə Nazirliyindən musavat.com-a verilən məlumata görə, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçirəcəklər.

Yeni MÜSAVAT
N 56 (7226) 12 mart 2019

**Azərbaycan daxil, beynəlxalq aləm Ermənistandan Dağlıq Qarabağ probleminin həlli ilə bağlı konstruktiv mövqe gözlədiyi halda, işğalçı ölkənin yeni hökuməti də sülh prosesini pozmağa yönəlik cəhdlər göstərməkdədir.**



# İşğalçı Ermənistanın Avropadakı Qarabağ məğlubiyyəti

## İrəvanın qeyri-konstruktiv siyasəti aparıcı paytaxtlarda ifşa olunmaqdadır; Azərbaycanın diplomatik uğurları onu torpaqlarının azadlığına yaxınlaşdırır

Əslində rəsmi Bakı son aylarda Nikol Paşinyana sələflərinin səhvlərindən nəticə çıxarmaq üçün kifayət qədər şans verdi. Azərbaycan prezidenti İlham Əliyev dəfələrlə işğalçı ölkənin baş nazirinə Robert Köçəryan və Serj Sərkisyanın cinayətlərini xatırladaraq, mövcud hakimiyyətə həm də ölkəsinin xilas yolunu göstərdi. Lakin görünür, Ermənistan rəhbərliyi xalqını fəlakətli vəziyyətdən xilas etməkdə maraqlı deyil.

Nikol Paşinyan martın ilk günlərində Avropanın siyasi mərkəzinə - Brüsselə çox iddialı getmişdi. Düşünürdü ki, Avropa İttifaqı (Aİ) onu "inqilab lideri" kimi qəbul edəcək, istədiyini verəcək, arzularını həyata keçirəcək. Amma Paşinyan gözləməzdi ki, Avropa Birliyindən Azərbaycanın maraqlarını müdafiə ilə bağlı mövqe eşidəcək...

Ermənistanın baş naziri ilə görüşən Avropa İttifaqının Avropa qonşuluq siyasəti və genişlənmə məsələləri üzrə komissarı Yohannes Hanla görüşdən sonra yenə də ənənəvi iddiasını dilə gətirdi, danışıqlar formatından bəhs etdi. Onun "Biz hesab edirik ki, münaqişənin nizamlanması üçün ilk effektiv format yaratmaq, Dağlıq Qarabağın iştirakını təmin etmək lazımdır" sözlərinə kifayət qədər tutarlı cavab verildi. Yohannes Han Paşinyanla razılaşmadığını açıq şəkildə ifadə etdi. Bildirdi ki, tərəflər Qarabağ münaqişəsinin nizamlanması üzrə mövcud danışıqlar formatını saxlamalıdır. Bu, Paşinyan üçün "soyuq duş" effekti verən bəyanat oldu.

Məsələ burasındadır ki, o, 2018-ci ilin mayında baş nazir seçilən kimi, Qarabağ ermənilərinin danışıqlarda iştirak etməsi şərtini irəli sürmüşdü. İddia edirdi ki, o, ancaq İrəvanın mövqeyindən çıxış edə bilər, Dağlıq Qarabağın əvəzindən danışa bilməz. Faktiki olaraq, N.Paşinyan özünün on aylıq siyasətini məhz formatın dəyişikliyi üzərində qurub. O istəyirdi ki, bu məsələdə uğura nail olsun, "danışıqlarda diktə edən şəxs" statusunda özünü erməni xalqının gözündə ucaltsın. Axı bu müddətdə heç bir uğuru olmayıb, ölkədə narazılıq gün-gündən artır, ölkəyə hətta xaricdəki erməni investorlar da kapital qoymaqdan imtina edir, borc içərisində boğulan Ermənistana inamsızlıq o həddə çatıb ki, bu ölkəyə kredit belə vermirlər. Elə N.Paşinyan Brüsselə böyük miqdarda maliyyə ardınca getmişdi, amma əvəzində sərt sillə aldı...

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qəzetimizə dedi ki, Avropa İttifaqının mövqeyindən məmnundur:** "Avropa İttifaqı tərəfindən Azərbaycana beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində göstərilən dəstək - bu ifadə də Tərəfdaşlıq prioritetləri adlı sənəddə bir daha öz təsdiqini tapıb - təqdir olunur. Ümumiyyətlə, Avropa İttifaqının siyasətində dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşılması fundamental istiqamətlərdən biri kimi müəyyən olunub".

**PA rəsmisi Ermənistanın baş nazirinin Brüssel görüşlərində Aİ rəhbərliyinin açıq şəkildə mövqeyini ifadə etməsindən məmnunluğunu ifadə etdi:** "Danışıqlar prosesində də Avropa İttifaqının danışıqların formatının dəyişdirilməməsi və mövcud format çərçivəsində davam etdirilməsi, danışıqlarla bağlı hər hansı şərtin qoyulmaması, bu kimi yanaşmanın qəbuledilməzliyi barədə mövqeyi tərəfimizdən alqışlanır".

**Ancaq rəsmi Bakı bu mövqeyi yetərli saymır:** "Bizim təkcə Avropa İttifaqından deyil, bütün beynəlxalq ictimaiyyətdən gözləntimiz ondan ibarətdir ki, İrəvana zəruri siyasi, diplomatik ismarıclar çatdırılmalıdır ki, Ermənistan reallığı düzgün qiymətləndirərək, danışıqlar prosesində konstruktiv iştirak etsin. Bu xüsusda onu da qeyd etmək istərdim ki, elə bu yaxınlarda Avropa İttifaqının bilavasitə dəstəyi ilə iqtisadi məsələlər üzrə xüsusilə ixtisaslaşmış analitik mərkəzlərdən biri Ermənistan-Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsinin həll edilməsinin həm Ermənistana, həm Azərbaycana iqtisadi dividentləri barədə hesabat hazırlayıb. Biz bu hesabatın fəlsəfəsini və ideyasını bölüşürük. Azərbaycan da həmişə onu deyib ki, münaqişə həll edilərsə, bu, regionda yeni əməkdaşlıq imkanları yarada bilər, Ermənistan əhalisi də bundan faydalana bilər. Bu xüsusda da Avropa İttifaqının öz səylərini artırması faydalı olardı".

**H.Hacıyev bir daha qeyd etdi ki, format dəyişikliyi Azərbaycan üçün qəbuledilməzdir:** "Danışıqlar prosesinin də məzmunu və predmeti hər kəsə bəllidir. Bu əsasda danışıqlar davam etdirilməlidir. Münaqişə tərəfləri də Ermənistan və Azərbaycandır".

****

**Haqlı sual yaranır, qəfildən nə baş verdi ki, Avropa Ermənistanın "demokrat" liderini pərt etdi? Axı biz illərdir Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT və s. zaman-zaman "öz müqəddəratını təyinetmə" prinsipinə istinad edərək, dolayısı ilə status-kvonun uzanmasına rəvac veriblər. Avropanın aparıcı təşkilatının mövqeyindəki dəyişikliyin yeganə səbəbi var. Söhbət Avropa İttifaqı ilə əməkdaşlıq məsələsində irəli sürülən şərtdən gedir. Azərbaycan dövləti Qarabağ məsələsi ilə bağlı daim prinsipial mövqe sərgiləyib. Ancaq 2017-ci ilin 4 oktyabrında Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyəti ilə görüş Avropanın aparıcı qurumu üçün bir növ "yol xəritəsi" rolunu oynadı. Prezident İlham Əliyev həmin görüşdə demişdi:** "Şərq Tərəfdaşlığı Zirvə görüşü zamanı bizim gözləntimiz ondan ibarətdir ki, postsovet məkanında mövcud olan bütün münaqişələrə münasibətdə Avropa Komissiyası tərəfindən vahid yanaşma nümayiş etdirilsin. Əks təqdirdə, biz haqlı olaraq bunu "ikili standartlar" yanaşması kimi qəbul edəcəyik. Bu səbəbdən, Dağlıq Qarabağla bağlı yekun bəyannamənin mətnində ərazi bütövlüyünə dair məsələnin aydın ifadə olunması çox vacibdir. Ümumilikdə isə bütün beynəlxalq formatlarda belə məsələlər müzakirə edilərkən bizim mövqeyimiz ondan ibarətdir ki, bütün münaqişələrlə bağlı vahid yanaşma olmalıdır".

Bu, kifayət qədər aydın və ciddi mövqe idi. Sonrakı aylarda və illərdə Avropadan Bakıya gələnlərin mövqeyindəki dəyişikliyi sezməmək mümkün deyildi. Bəli, Ermənistandan fərqli olaraq, Azərbaycan Avropa üçün vazkeçilməz müttəfiqdir. Azərbaycanın iştirakı olmadan bölgədə hansısa layihəni reallaşdırmağın mümkünsüzlüyünü ötən illərin təcrübəsi sübut edib. Ermənistan ucuz qaz üçün gah Rusiya, gah İrana əl açdığı halda, Azərbaycan Avropanı enerji ehtiyatları ilə təmin edir və bu istiqamətdə növbəti layihələr həyata keçirilməkdədir. Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin də əsas prioritetlərindən biridir. Məhz bunun məntiqi nəticəsidir ki, tərəflər yeni sazişlə bağlı danışıqlara başlayıb və bir çox məsələlər artıq razılaşdırılıb. Avropa İttifaqının Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırması faktını da unutmaq olmaz. Belə olan təqdirdə Avropanın Azərbaycanın Qarabağla bağlı mövqeyini nəzərə almaması, sadəcə, mümkünsüz idi...

Ötən ilin 24 noyabrında Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı Sammitində qəbul edilən bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü ilə bağlı konkret mövqe ilk dəfə ortaya qoyulmuşdu. Belə ki, bəyannamədə Avropa İttifaqının ölkələrin ərazi bütövlüyünü dəstəklədiyi xüsusilə vurğulandı, "öz müqəddəratını təyinetmə" ifadəsinə isə ümumiyyətlə, yer verilmədi. Bu isə rəsmi İrəvanın illərdir apardığı siyasətinin iflası idi. Şərq Tərəfdaşlığı Sammitində qəbul edilən bəyannamə şübhəsiz ki, Azərbaycan diplomatiyasının böyük uğurudur. Amma beynəlxalq təşkilatlar işğalçını, nəhayət, öz adı ilə çağırsa, ədalətli sülhə daha tez nail olmaq mümkündür.

Avropa İttifaqı Avropa Komissiyasına Ermənistan vasitəsilə hər hansı məhsulun qanunsuz şəkildə Avropa İttifaqına ixracının qarşısını almaqla bağlı çağırış edib. Beləliklə, işğal olunmuş ərazilərimizdə qanunsuz istehsal olunmuş malların Aİ ərazisinə ixracına Avropa Parlamenti tərəfindən də etiraz ifadə olunub. Ancaq çağırışın nəticəsi olacaqmı? Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini artıq 26 ildir ki, icra etmir, üstəlik, Azərbaycanın işğal altındakı ərazilərində qanunsuz məskunlaşdırma işləri aparır, nümayişkaranə şəkildə torpaqları azad etməyəcəyini bildirir. Deməli, təzyiqlərin artırılmasına ehtiyac var.

**Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov da bildirdi ki, bu kimi konfliktlərdə bir sıra tədbirlərin həyata keçirilməsi təcrübəsi var:** "O cümlədən qondarma qurumların vəzifəli şəxslərinin Avropaya səfərlərinə qadağa qoyulur, iqtisadi əlaqələrə, ixraca imkan verilmir, təbliğat imkanları məhdudlaşdırılır. Avropa İttifaqı Qarabağ məsələsi ilə bağlı digər konfliktlərə aid olan addımları atsalar, daha məqsədəuyğun olar". **Politoloqun sözlərinə görə, Paşinyanın bəyanatları onun birmənalı şəkildə danışıqlardan uzaqlaşmaq niyyətində olduğunu göstərir. Bu mənada Avropa İttifaqı bəzi sərt tədbirləri həyata keçirə bilər:** "Yəni Avropa Rusiyaya qarşı atdığı addımları Ermənistana münasibətdə də ata bilər".

Əslində rəsmi Bakının işğalçı Ermənistanla danışıqlara hazır olmasının özü qarşı tərəf üçün böyük güzəştdir. Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının sədri Tural Gəncəliyev ATƏT-in fəaliyyətdə olan sədri Miroslav Layçakla görüşüb və "Biz inanırıq ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin hər iki icması Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində, sülh şəraitində birgə mövcud olmalıdır", - deyib. Qarşı tərəfsə görüşdən imtina edir...

Bu arada Azərbaycan ordusunun genişmiqyaslı hərbi təlimlərə başlaması düşməni təşvişə salıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyan iddia edib ki, Azərbaycan ordusunun elan edilmiş irimiqyaslı hərbi təlimləri İlham Əliyevlə Nikol Paşinyanın görüşü ərəfəsində erməni tərəfinə təzyiq göstərməyə hesablanıb. Əslində Azərbaycanın mövqeyi bəllidir. Ehtiyatda olan polkovnik Şair Ramaldanovun dediyi kimi, artıq Azərbaycanın səbri tükənib və hər an düşmənə sarsıdıcı zərbə endirilə bilər. Əgər Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan işğal altındakı Füzuli rayonuna gələrək həyasızcasına "bir qarış da torpaq qaytarmaqdan söhbət gedə bilməyəcəyini" deyirsə, bunun cavabı təbii ki, danışıqlar masasında verilməyəcək.

Bu arada Azərbaycan xalqının mövqeyini və Avropa İttifaqının son bəyanatını nəzərə alan ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də hərəkətə keçməsi diqqət çəkir. Həmsədrlər öz bəyanatlarında faktiki olaraq Ermənistanın sərgilədiyi mövqeyə cavab veriblər. Diplomatlar tərəfləri mövcud vəziyyətdə dəyişiklik yarada biləcək açıqlamalardan və hərəkətlərdən, gələcək danışıqlar üçün şərtlər irəli sürməkdən və digər tərəfin razılığı olmadan formata dəyişikliklər tələb etməkdən, o cümlədən aktiv hərbi əməliyyatları bərpa etmək çağırışlarından çəkinməyə çağırıb. Bu, dolayısı ilə İrəvana yönələn tərs şapalaqdır.

Avropa da sözünü dedi, həmsədrlər də. İndi söz qarşı tərəfin - işğalçınındır. İşğalçı Avropada Qarabağla bağlı diplomatik məğlubiyyətə uğradı. Ancaq növbəti döyüş məhz Qarabağda olacaq! 2016-cı ilin "Aprel dərsi" də gərək unudulmasın. Üstəlik, günbəgün güclənən, aparıcı paytaxtların bölgədə vazkeçilməz müttəfiqi olan Azərbaycan işğaldakı torpaqlarının azadlığına yaxınlaşır...

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.**

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# Türkiyə tarixində bir ilk: Ərdoğanın ermənilərə erməni̇cə mesajı

**Politoloq:** "Ermənilərə bundan artıq lütfkarlıq göstərilsə belə, onlar fürsət düşən kimi yenə Türkiyəyə arxadan zərbə vuracaqlar"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulun erməni patriarxı, arxiyepiskop Mesrop Mustafyanın ölümü ilə bağlı twitter mikrobloqunda başsağlığı mətni yayımlayıb.**



Axar.az xəbər verir ki, diqqətçəkən məqam başsağlığı mətninin erməni dilində olmasıdır.

"Erməni patriarxı Mesrop Mustafyanın ölümü ilə bağlı dərin təəssüf hissi keçirdim. Bu səbəbdən onun ailəsinə, yaxınlarına və erməni vətəndaşlarımıza başsağlığı verirəm", - deyə bildirilib.

Qeyd edək ki, M.Mustafyan 10 illik komadan sonra axır ki, ölüb.

Türkiyə prezidentinin məhz erməni dilində başsağlığı yazması həm qardaş ölkədə, həm də Azərbaycanda müzakirələrə səbəb olub.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, Ərdoğan ermənilərə lütfkarlıq edib və ölkəsinin tolerantlığını nümayiş etdirmək istəyib:** "Statistikaya görə, Türkiyədə 100 min erməni vətəndaşı yaşayır. Ermənilər Türkiyədə təşkilatlanıblar. Onların Qriqoryan kilsəsi var və həmin kilsənin nəzdində erməni dilində orta məktəb fəaliyyət göstərir. Ermənilər hələ Osmanlı dövründən başlayaraq orada özlərinə müəyyən imtiyazlar əldə edə bilirdilər. Bu imtiyazlar hətta onlara dövlətdə yüksək postları tutmaq imkanı yaratmışdı. Osmanlı İmperiyası dövründə xarici işlər naziri, maliyyə naziri işləyən ermənilər olub. Bu səbəbdən də ermənilərə "əziz millət" titulu verilmişdi. Amma bu "əziz millət" Rusiya Osmanlıya hücum eləyəndə dərhal ruslara qoşuldu və rus qoşunlarına kəşfiyyat məlumatları verməklə yanaşı, yaratdıqları silahlı qruplarla türk ordusuna zərbə vurmağa başladı. Bu gün Türkiyədəki erməni kilsəsinin başçısının vəfat etməsi münasibətilə Ərdoğanın erməni dilində başsağlığı verməsi ermənilərə çox böyük lütfdür. Türkiyə Cümhuriyyəti çoxmillətli ölkədir, orada sayca ikinci ən böyük milləti kürdlər təşkil edir. Ermənilər isə Türkiyədə saylarına görə heç ilk beşlikdə olan millətlərin sırasında deyillər. Cəmi yüz minlik erməni üçün Türkiyə prezidentinin erməni dilində başsağlığı verməsi günün hadisəsi sayıla bilər. Çünki indiyə qədər Türkiyənin heç bir rəhbəri ermənilərə münasibətində bu cür tolerant olmayıb. Mən cənab Ərdoğanın bununla Türkiyədə multikulturalizim, tolerantlıq münasibətlərinin mövcud olduğunu göstərməyə çalışdığını düşünmək istəyirəm".

**Politoloq vurğuladı ki, ermənilərə hətta bundan da artıq lütfkarlıq, xoş niyyət göstərilsə belə, onlar fürsət düşən kimi yenə Türkiyəyə arxadan zərbə endirəcəklər:** "Türkiyədə ermənilərin sayı və gücü ölkənin siyasi həyatına təsir etmək səviyyəsində deyil. Bu baxımdan hesab edirəm ki, Ərdoğanın erməni dilində başsağlığı verməsində 31 martda keçiriləcək bələdiyyə seçkiləri amili rol oynamır. Ermənilər "soyqırım" uydurmalarının növbəti ildönümünə hazırlaşırlar. Türkiyə prezidenti bununla bağlı özünün tolerant münasibətini sərgiləmək istəyir. Ola bilsin ki, din xadiminin ölümünə görə erməni dilində başsağlığı verilməsində bu amil rol oynayıb.

Türkiyə ilə qardaş olsaq da, biz onun prezidentinin hansısa hərəkətini təqdir etmək və ya qınamaq kimi hüquqa malik deyilik. Bunu Türkiyənin ana müxalifəti, siyasi partiyaları, ictimaiyyəti etmək hüququna malikdir".




❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İran prezidentinin qəfil Bağdad səfərində əsas hədəf

## 3 günlük səfər imamların ziyarətgahından başladı, gündəmdə isə çoxlu sayda mövzular var...

**İran prezidenti Həsən Ruhani martın 11-də İraqa səfər edib. Bağdada səhər saatlarında gələn Həsən Ruhani rəsmi qarşılanma mərasimindən əvvəl bu şəhərdə yerləşən Kazimeyn məntəqəsində 7-ci imam Musa əl-Kazim və nəvəsi, 9-cu imam Məhəmməd Təqinin məzarını ziyarət edib.**



Ziyarətdən sonra İran prezidenti Bağdaddakı prezident iqamətgahına gəlib və burada rəsmi mərasimlə qarşılanıb. Həsən Ruhanini İraq səfərində hökumət komandasının yüksək vəzifəli şəxsləri, əsas iqtisadi komandanın üzvləri müşayiət edib. İran mətbuatının yazdığına görə, səfərdə əsasən iki ölkə arasında iqtisadi əlaqələr, birgə sənaye mərkəzlərinin qurulması, İran-İraq dəmir yolu xəttinin tikintisi, eləcə də ekoloji problemlər, toz buludlarının yaratdığı fəsadlar, səhiyyə, turizm, tranzit və təhlükəsizlik kimi mövzular müzakirə olunacaq.

Qeyd edək ki, İraq hökumətinin dəvəti ilə baş tutan rəsmi səfər 3 gün davam edəcək. Ruhaninin İraq prezidentinin Bərham Salehi, baş nazir Adil Əbdülmehdi, parlamentin sədri Məhəmməd əl-Halbusi ilə görüşməsi planlaşdırılıb.

Bu, Həsən Ruhaninin İraqa ilk səfəridir. Onun İraqda müqəddəs ziyarətgahların yerləşdiyi Nəcəf və Kərbəla şəhərlərinə səfər etməsi və nüfuzlu din xadimi Ayətullah əl-uzma Seyid Əli Sistani ilə görüşməsi gözlənilir.

Səfərdən öncə Tehran Mehrabad hava limanında verdiyi açıqlamada Ruhani ötən ilin sonunda ABŞ prezidenti Donald Trampın İraqa gizli səfərini tənqid edib. Ruhani deyib ki, amerikalıların İraq, Suriya və digər bölgə ölkələrinə atdığı bombalar unudulmayacaq. Eyni zamanda deyib ki, İran-İraq münasibətləri həqiqi qardaşlıq təməlləri üzərində qurulub və hər iki xalq üçün faydalıdır.

İraq İranın ən vacib qonşularından biridir. İki ölkə arasında böyük və eyni zamanda riskli sərhəd xətti mövcuddur. Şimala doğru bu sərhədlər kürdlərin yaşadığı bölgələrdən keçir, cənubda isə İranın etnik ərəblər yaşayan Xuzistan vilayəti ilə sərhəddir. Hər iki ərazi İranda potensial silahlı separatizm mənbələrindən hesab olunur. Bu səbəbdən də İran üçün indi ən həssas nöqtələrdən biri məhz İraqdır. Digər tərəfdən, hazırda İraq ərazisində 5 min ABŞ hərbçisi var və eyni zamanda Vaşinqton İran hakimiyyətinə qarşı əsas silah hesab olunan "Xalqın Mücahidləri" qruplaşmasını yenidən İraqa yerləşdirməyə çalışır. Bu isə o deməkdir ki, əgər bu, baş versə, İranda silahlı hücumlar və terror güclənəcək. Bu səbəbdən də Tehran Bağdadla indi "saatlarını tutuşdurmağa" ehtiyac duyur. İrana qarşı ABŞ hökuməti hərtərəfli təzyiqləri artırıb. Bunun qarşısında İranın xüsusən də qonşularla əlaqələrini gücləndirməsinə ehtiyac var.

Hər nə qədər dini-məzhəbi baxımdan yaxın ölkələr olsa da, İraqda İrana qarşı fəaliyyətlər çox güclüdür. Ötən ilin payızında İraqın cənubunda, şiələrin sıx yaşadığı Bəsrə şəhərində baş verən etirazlar daha sonra İranın bu şəhərdəki konsulluğuna hücuma çevrilmişdi. Çünki daha əvvəl sosial vəziyyət, eləcə də elektrik və su qıtlığına etiraz olaraq keçirilən etirazlar daha sonra İrandan verilən suyun zəhərli olması iddialarının təsiri ilə İrana qarşı çevrilib.

Nümayişçilər İranın Bəsrədəki konsulluğuna, həmçinin Bəsrədəki şiə siyasi partiyalarının, həmçinin yerli telekanalların və eləcə də "Həşdi Şabi" ordu birliyinin, həmçinin bura daxil olan ayrı-ayrı silahlı qrupların yerli ofislərinə hücum edib. İranın Bəsrədəki konsulluğuna hücum edənlər konsulluq binasını tamamən dağıdıb, həmçinin İran bayrağını yandırıblar.

Tehran baş verənlərə sərt reaksiya verib. Əvvəlcə İraqın Tehrandakı səfiri XİN-ə dəvət olunub, ardınca isə İran-İraq sərhədində əsas keçid nöqtələrindən biri olan Sələmçə Nəzarət Buraxılış Məntəqəsi müvəqqəti olaraq bağlanıb. Ancaq aydın məsələdir ki, bu vəziyyət uzun müddət davam etməyib, tezliklə vəziyyət nəzarət altına alınsa da, bu hadisələr iki ölkə arasındakı münasibətlərdə olan gizli çatları üzə çıxardı.

Daha bir həssas mövzu son illərdə İraqda ərəb millətçiliyi fikirlərinin güclənməsidir. Xüsusən də İranın regiondakı əsas rəqibi olan Səudiyyə Ərəbistanı İraqla əlaqələrini gücləndirir. Son iki ildə İraq baş naziri Səudiyyə Ərəbistanına səfər edib, bundan başqa, ötən ilin mayında keçirilən seçkilərdə qələbə qazanan siyasi ittifaqın lideri, din adamı Müqtəda əs-Sədr ər-Riyada səfər edərək vəliəhd-şahzadə Məhəmməd bin Salmanla görüşdü. Detallar açıqlanmasa da, əsas məqsədin iki ölkə arasında yaxınlaşma olduğu məlumdur. Səudiyyə Ərəbistanı regionun əsas dövlətlərindən biri olan və məzhəb baxımından İrana ən yaxın ərəb ölkələrindən biri olan İraqda təsirini gücləndirmək istəyir. Bunun üçün hətta iraqlıların Həcc səfəri zamanı bir sıra güzəştlər tətbiq olunur. Təbii ki, bütün bunları İranda da müşahidə edirlər.

Əlbəttə ki, sanksiyaların güclındiyi bir zamanda İrana İraqla münasibətləri qaydaya salmaq vacibdir. Bunu qismən də olsa bazar ertəsi günü Bağdad səfəri öncəsi Həsən Ruhani özü də etiraf edib. İran prezidenti deyib ki, indi onun ölkəsi bir çox ehtiyaclarını İraq vasitəsilə təmin edə bilər. Xüsusən də tranzit yük daşımaçılığı kimi sahələrin inkişaf etdirilməsi gündəmdədir. Hazırda İran və İraq arasında ticarət dövriyyəsi 12 milyard dollar həcmində qiymətləndirilir. Ancaq İran tərəfi Ruhaninin səfərindən sonra əldə olunacaq razılaşmalar sayəsində ticarət dövriyyəsini 20 milyard dollara qədər artırmağı düşünür.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 56 (7226) 12 mart 2019

# Venesuela zülmət içində

## Maduronu devirmək üçün işıq, internet böhranı başlanıb, ordu hərəkətə keçib - Pompeodan açıqlama...



**Uqo Çavesin siyasi varisi Nikolas Maduronu devirmək üçün bütün güclər səfərbər olunub. Artıq Venesuelada elektrik enerjisi böhranı yaşanır.**

Buna səbəb martin 7-də ölkənin əsas elektrik stansiyasında baş verən ciddi qəza olub. Bir sutkadan sonra yalnız paytaxt Karakasın bir sıra rayonlarına işıq verilə bilib.

Ümumilikdə isə ölkədə mobil rabitə və internet əlaqəsində ciddi problemlər yaranıb, bir sıra iri şəhərlər hələ də işıqsız qalıb.

Elektrik enerjisinin kəsilməsi demək olar ki, 30 milyonluq Venesuelanın bütün bölgələrinə təsir edib. Bu barədə "Associated Press" agentliyi xəbər verib. Dövlət energetika şirkəti bunu sabotaj adlandırıb.

İnformasiya naziri Xorse Rodriqes bəyan edib ki, hansısa hakerlər elektrik stansiyasının kompüter şəbəkəsinə kiberhücum ediblər.

Venesuela ordusu ölkənin enerji sistemini qorumaq və bundan sonra baş verə biləcək qəzaların qarşısını almaq üçün havadan müşahidə sistemini işə salıb. Bu barədə Venesuelanın müdafiə naziri Vladimir Padrino Lopes danışıb.

"Venesuelanın Milli Silahlı Qüvvələri bu gün elektrik xətlərinin havadan müşahidə sistemini işə salıb, həmçinin dünəndən etibarən bütün strateji obyektlər fərqli səviyyələrdə fiziki müdafiə, vəziyyətin tənzimlənməsi və istənilən hücumların qarşısının alınması üçün nəzarətə götürülüb", - nazir deyib.

Venesuelada elektrik verilişi ölkədəki ən vacib su elektrik stansiyasında yüklənmə ucbatından dayandırılmışdı. Hökumət baş verənlərə görə ABŞ-ı ittiham edib. Belə ki, hökumət rəsmilərinin fikrincə, SES ABŞ-dan təşkil edilən kiberhücumlardan sonra yüklənərək fəaliyyətini dayandırıb.

Amma ABŞ dövlət katibi Mayk Pompeo martin 8-də bəyan edib ki, buna görə yalnız Maduro rejimi cavabdehlik daşıyır. Dövlət katibi qeyd edib ki, onun siyasəti qaranlıqdan başqa heç nə gətirmir.

Müxalifət lideri və parlamentin sədri Xuan Quaydo yanvarda özünü müvəqqəti ölkə başçısı elan edib və bundan sonra ABŞ, Kanada, bir sıra Latın Amerikası və Avropa Birliyi ölkələri onun legitimliyini qəbul ediblər.

Rusiya isə Venesuela böhranında prezidentliyini qorumağa çalışan Maduronun tərəfini saxlayır və Birləşmiş Ştatları bu ölkənin daxili işlərinə qarışmaqda günahlandırır.

Reyqan administrasiyasında ABŞ maliyyə nazirinin iqtisadi siyasət üzrə keçmiş müavini olmuş, bir zamanlar "The Washington Times" qəzetində daimi köşələrlə çıxış edən Pol Roberts geniş həcmli məqaləsində sual edərək yazır ki, sizə elə gəlmirmi Vaşinqton Venesuelaya məxsus 21 trilyon dolları oğurlayanda, bu ölkəni qarışdırmaq və Venesuela hökumətini diz üstə qoymaq, "xalqda aclıq yaranmasın"da Venesuela sosializmini (özəlliklə neft şirkətinin milliləşdirilməsi) ittiham etmək cəhdiylə ona qarşı sanksiyalar tətbiq edəndə, sonra isə miskin 21 milyon dolları "humanitar yardım" kimi təklif edəndə möhkəm şitini çıxardır?

Onun fikrincə, Vaşinqtonun Venesuelaya qarşı həmləsi müəyyən edilmiş beynəlxalq hüququn pozulmasıdır. Venesuela dünyada ən böyük neft ehtiyatına malikdir və qızıl, alüminium filizləri, koltan daxil olmaqla başqa təbii resurslarla zəngindir. Amma bunlar Maduro hökuməti dönəmində ABŞ və transmilli şirkətlər üçün əlçatmazdır.

Bu arada, Venesuelanın neft naziri və dövlət neft şirkəti PDVSA-nın rəhbəri Manuel Kevedo Bakıya gələcək.

Bu barədə Venesuelanın Bakıdakı səfirliyi məlumat yayıb. M.Kevedo "OPEK +" formatında nazirlər səviyyəsində Bakıda martın 18-də keçiriləcək toplantıda iştirak edəcək.

Venesuela və PDVSA hazırda ABŞ-ın sərt sanksiyalarının təsiri altındadır. Bu sanksiyaların nəticəsi olaraq PDVSA hasil etdiyi nefti praktiki olaraq sata bilmir.

ABŞ-a satdığı neftin pulu isə müxalifət lideri Xuan Quaydonun hesabına oturur. PDVSA rəhbəri son günlər Asiya və Yaxın Şərq ölkələrində danışıqlar apararaq sanksiyaların təsirini yumşaltmaq üçün çalışsa da cəhdlər nəticə verməyib.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Nar"ın baş icraçı direktoru beynəlxalq İKT sammitində rəqəmsal transformasiya mövzusunda çıxış edib



**"Azerfon" MMC-nin ("Nar" ticarət nşanı) baş icraçı direktoru Qunnar Panke Mərkəzi və Şərqi Avropa ölkələrinin 3-cü Sofia İnformasiya Texnologiyaları Sammitində məruzəçi kimi iştirak edib. Dünyanın aparıcı İT və telekommunikasiya şirkət rəhbərlərinin iştirakı ilə martın 7-də keçirilən ənənəvi tədbirdə İKT sahəsində tətbiq edilən yeniliklər və innovativ dəyişikliklər haqqında danışılıb. Azərbaycan telekommunikasiya sahəsini sammitdə təmsil edən "Azerfon"-un baş icraçı direktoru Q.Panke müasir dövrdə rəqəmsal tranformasiya mövzusunda çıxış edib və rəqəmsal transformasiyanın telekommunikasiya şirkətlərinə verdiyi üstünlüklər barədə ətraflı danışıb. Böyük maraqla qarşılanan çıxışında Q.Panke bildirib: "Rəqəmsal transformasiyanın bir neçə əsas aparıcı istiqaməti var. Birincisi, getdikcə daha çox insanın smartfonlardan istifadə edərək daha çox rəqəmsal xidmətlərdən xəbərdar olmasıdır. İkincisi, qarşılıqlı rəqəmsal əlaqədir; Müştərilər birbaşa olaraq öz xidmət operatorları ilə əlaqə saxlamaq istəyir və bu mənada biznes sifariş, çatdırılma və xidmətin tam avtomatlaşdırılmasını dəstəkləyir. Növbəti istiqamət 5G texnologiyasının tətbiqidir. Böyük həcmli məlumatların yüksək sürətlə ötürülməsi, məlumat mübadiləsi zamanı yaranan gecikmələrin minimal səviyyəyə endirilməsi yeni rəqəmsal tətbiqlərin və xidmətlərin yaranmasına imkan verəcək. Bu da bütün sahələrin rəqəmsal transformasiyasına təkan verəcək". Q.Panke rəqəmsal transformasiya prosesinin gələcəkdə "Nar"-da tətbiqi strategiyası üzərində intensiv çalışıldığını vurğulayb.**

Qeyd edək ki, Q.Panke sabit və mobil telekommunikasiya, internet və media/TV sahəsində 20 ildən artıq təcrübəyə malikdir. O, Almaniya, Fransa, Şərqi Avropa, Latın Amerikası və Yaxın Şərq ölkələrinin bir-birindən fərqli rabitə bazarlarında zəngin iş təcrübəsi qazanıb.

Qeyd edək ki, 3-cü Mərkəzi və Şərqi Avropa ölkələrinin İKT Sammitində yeni bazar trendləri, texnoloji nailiyyətlər, çağdaş ideya və təşəbbüslər, mobil rabitənin gələcək perspektivləri kimi önəmli məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Forumda Mərkəzi və Şəqi Avropa ölkələri ilə yanaşı, Yaxın Şərq, Türkiyə, Qafqaz regionundan İKT sahəsində fəaliyyət göstərən ən nəhəng şirkətlərin rəhbərləri və baş icraçı direktorları, eyni zamanda şəbəkə operatorları, IXP (Internet exchange point), ISPs (Internet service provider), OTTs (Over the top), təhlükəsizlik və digər həll provayderləri sahəsində 300-ə qədər mütəxəssis iştirak edib. Sammitin keçirilməsində məqsəd aparıcı telekommunikasiya şirkətlərinin rəhbərlərini bir araya gətirmək, qarşılıqlı təcrübə və fikir mübadiləsinə zəmin yaratmaqla, inkişaf edən telekommunikasiya mənzərəsində gəlirliliyi artırmaq üçün strategiyalar irəli sürməyə şərait yaratmaqdır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.




# Rusiyaya məxsus təyyarə Bakıda məcburi eniş etdi - bomba həyəcanı

**Bəhreyn şəhərindən Moskva şəhərinə uçan "Ural Hava Yolları" şirkətinə məxsus Airbus A321 təyyarəsi bazar ertəsi Bakı vaxtı ilə saat 14:56-da Heydər Əliyev Beynəlxalq Aeroportunda müvəffəqiyyətlə eniş edib.**

Bu barədə musavat.com-a Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidmətindən məlumat verilib.

Hava gəmisinin qəza enişinə səbəb - HG kapitanının hava gəmisində bombanın olmasından şübhələnməsi olub.

Hava limanının bütün qəza-xilasetmə xidmətləri həyəcan siqnalı ilə ayağa qaldırılıb və hazır vəziyyətə gətirilib.

Hava gəmisində ekipaj üzvləri də daxil olmaqla, ümumilikdə, 225 nəfər olub.

HG komandiri sərnişinlərin təcili təxliyyəsi barədə qərar qəbul edib.

# Efiopiya qəzası "Boeing" təyyarələrini şübhə altına saldı

## Mütəxəssis: "Texniki baxışdan keçirilən təyyarənin qəzaya düşmə riski çox aşağıdır"



**Martın 10-da Efiopiya Hava Yollarına məxsus "Boeing 737 Max 8" təyyarəsinin qəzaya uğraması nəticəsində təyyarədəki 158 nəfər həlak oldu. Bütün bunlar "Boeing" təyyarələrinin təhlükəsizlik məsələsini bir daha gündəmə gətirib. Çünki son zamanlar "Boeing" təyyarələri ilə bağlı qəza xəbərləri bir qədər intensivləşib. Əvvəlcə onu qeyd edək ki, Efiopiyanın "Ethiopian Airlines" aviaşirkəti 158 nəfərin ölümü ilə nəticələnən qəzadan sonra "Boeing 737 Max 8" tipi təyyarələrlə uçuşu dayandırıb. Bu qərar əlavə təhlükəsizlik tədbirləri qismində qəbul edilib. Şirkətdən bildirilib ki, "Boeing"in qəzaya düşmə səbəbi hələ ki məlum deyil. Böyük Britaniyanın iri aviaşirkəti və Çin hökuməti də qəzanın səbəbləri müəyyənləşdirilib ictimaiyyətə açıqlanana qədər "Boeing" təyyarələri ilə uçuşu müvəqqəti dayandırıb. Yada salaq ki, təxminən 6 ay bundan öncə eyni modeldən olan təyyarə İndoneziyada da qəza törətmişdi.**

"Boeing" şirkəti ötən il 250-dən artıq Max təyyarəsi satıb və 5 mindən artıq sifarişi yerinə yetirmək üçün istehsalı gücləndirib. "The New York Times" qəzeti Çinin istifadə etdiyi 96 təyyarəni yığışdırmaq əmri verdiyini yazır. Çin hava yolları yeni "Boeing" təyyarələrinin ən böyük istifadəçiləri sırasındadır.

Ümumilikdə dünyada sərnişin təyyarələrinin sayı 22 mindən çoxdur.

Konkret olaraq son zamanlar "Boeing 737" təyyarələrinin qəza statistikasına gəlincə, "Yeni Müsavat" olaraq bəzi məlumatları diqqətinizə çatdıraq. Qeyd edək ki, "Boeing 737" böyük bir "ailə" kimi xarakterizə olunur. Yəni xeyli sayda modelləri var. "Boeing B737-800" təyyarələrindən 5073 ədəd istehsal olunub və ilk uçuş 1997-ci ilə təsadüf edir. Həmin zamandan 2018-ci ilə qədər bu model təyyarələrin başına 71 hadisə gəlib. Hadisələrdən 7-də ciddi ölüm faktları qeydə alınıb.

Digər "Boeing" qəzalarına və hadisələrinə də nəzər salaq. 1983-cü ilin sentyabr ayında Koreya Hava Yollarına aid "Boeing 747" təyyarəsi sovet qırıcısı tərəfindən vurulub. Nəticədə, 269 sərnişin ölüb. 1985-ci ilin iyun ayında Hindistan Hava Yollarına aid "Boeing 747" İrlandiya sahillərində vurulması nəticəsində 329 sərnişin ölüb. 1985-ci ilin avqustunda Yapon Hava Yollarına aid "Boeing 747"nin dağa çarpılması nəticəsində 520 sərnişin ölüb. 21 dekabr 1988-ci ildə "Boeing 747" təyyarəsi Şotlandiyanın Lockerbie qəsəbəsi üzərində partlayıb. Nəticədə təyyarədəki 259 sərnişindən 11-i ölüb. 5 fevral 1996-cı ildə Dominikanda "Boeing 737"-nin partlaması nəticəsində 189 sərnişin ölüb. 17 iyul 1996-cı ildə ABŞ-da "Boeing 747"-nin partlaması nəticəsində 230 sərnişin ölüb. 12 noyabr 1996-cı Hindistan "Boeing 747"-nin partlaması nəticəsində 349 sərnişin ölüb. 6 avqust 1997-ci ildə Korean Air "Boeing 747-300"-ün qəzaya uğraması nəticəsində 227 sərnişin ölüb. 31 oktyabr 1999-cu ildə Misirin cənub-şərqi "Boeing 767-300"-ün qəzaya uğraması nəticəsində 217 sərnişin ölüb. 6 mart 2003-cü Əlcəzairə aid "Boeing 737-200" tipli təyyarənin qəzaya uğraması nəticəsində 103 sərnişin ölüb. 8 iyul 2003-cü ildə Sudan Hava Yollarına aid "Boeing 737" tipli təyyarənin qəzaya uğraması nəticəsində 104 sərnişin və 11 ekipaj üzvü ölüb. Qəzadan yalnız 2 yaşlı uşaq sağ qurtara bilib. 14 avqust 2005-ci ildə Yunanıstana aid "Boeing 737" tipli təyyarənin Afinanın şimalında qəzaya uğraması nəticəsində 121 sərnişin ölüb. 1 yanvar 2007-ci ildə İndoneziyada "Boeing 737-400" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində 90 sərnişin ölüb.

Qəzalara səbəb kimi əksər hallarda təyyarənin motorlarında yaranan problem göstərilir. Xüsusilə də 2018-ci ildə təyyarə qəzalarının sayı 2017-ci illə müqayisədə xeyli dərəcədə artıb. Belə ki, qeyd etdiyimiz ildə ümumilikdə 16 təyyarə qəzası baş verib ki, bunun nəticəsində 555 nəfər həlak olub...

Ekspertlərə görə təyyarələrin qəza törətməsi yay aylarında daha da artır. Bunun səbəbi sərnişin çox olduğu üçün təyyarələrin texniki baxımına lazımi qədər vaxt ayrılmamasıdır.

**Türkiyəli ekspert Kaya Sayın bildirib ki, texniki baxışdan keçirilən təyyarənin qəzaya düşmə riski çox aşağıdır. Ekspertə görə, təyyarələrin köhnə və ya yeni olması məsələsi müzakirə mövzusu deyil:**

"Çünki təyyarə maşın deyil ki, istismar müddəti başa çatdıqdan sonra havaya qaldırıla. Bu, mümkün deyil. Əgər təyyarənin istismar müddəti başa çatıbsa, onu xəttə buraxmırlar. Sadəcə olaraq, təyyarələr vaxtı-vaxtında texniki baxışdan keçirilməlidir. Ola bilər ki, bəzi şirkətlər çəkilən xərci azaltmaq üçün bunu etmirlər".

Digər tərəfdən, bildirilir ki, burada insan faktoru da önəmlidir. Qüllədə oturandan tutmuş, təyyarəni idarə edən pilota qədər hər kəs məsuliyyət daşıyır. Onlardan birinin yanlışlığı isə qəza ilə nəticələnə bilir. Ümumilikdə mütəxəssislər bildirirlər ki, əgər təyyarə qəzalarının qarşısını almaq istəyiriksə, pilotların təhsilindən tutmuş, təyyarələrin texniki baxışına qədər hər bir detala önəm vermək lazımdır.

Ümumilikdə isə dünyada təyyarə qəzaları əsasən eniş və qalxma zamanı baş verir. Xüsusilə də təyyarələr eniş zamanı daha çox qəza riski ilə üzləşirlər. Enmə prosesi əslində göründüyü qədər sadə deyil və burada təyyarənin çəkisi (yanacaq çəninin nə qədər dolu olması) da önəmli rol oynayır. Ona görə də əksər uzaq məsafəyə uçan təyyarələr yanacağın ağırlığı səbəbindən tez bir zamanda eniş edə bilməzlər. Əgər bu ağırlıqda eniş edilərsə, təyyarə parçalana bilər.

Lakin bunun üçün də müasir zamanda müvafiq sistemlər də yaradılıb. Hansı ki bu sistem vasitəsilə təyyarələr yanacağının bir neçə tonunu qısa müddətdə ata bilir.

Məlumatlarda "Boeing" təyyarələrində yaşanan qəzaların səbəbi kimi əsasən texniki baxışın lazımi səviyyədə olmaması və pilot hazırlığının zəifliyi göstərilir.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Tatarıstanda məmur qadın "Porshe"dən imtina etdi, bəs bizdə?

## Hüquqşünas: "Ölkəmizdə korrupsiyanın əsas təşəbbüskarı elə qadınlardır"




**Hər bir qadın arzulayır ki, əlamətdar günlərdə ürəyincə olan hədiyyələr alsın. Belə günlərdən birini qadınlar ötən həftə qeyd etdilər. 8 martda dünyanın çoxsaylı ölkələrində yaşayan qadınlar iş və həyat yoldaşlarından, dostlarından, sevgililərindən müxtəlif hədiyyələr aldılar. Rusiyanın Tatarıstan Muxtar Respublikasının sakini Taliyə Minullina isə milyonlarla qadının arzusu olan bir hədiyyə - "Porshe" avtomobili alıb. Avtomobili ona sevgilisi hədiyyə edib. Nə qədər qəribə də olsa, Taliyə hədiyyədən imtina edib - səbəb bu gənc xanımın dövlət məmuru olmasıdır.**

Tatarıstan İnvestisiya İnkişaf Agentliyinin rəhbəri olan A.Minullina məhz məmur olduğu üçün bahalı avtomobildən imtina edib. O, dövlət məmuru olaraq, avtomobili rəsmiləşdirməkdə çətinlik çəkdiyini, vəzifəsinin buna imkan verməndiyini bildirib. Sevgilisinə isə maşını sataraq, əldə edəcəyi pulu Tatarıstan iqtisadiyyatına yatırmağı tövsiyə edib: "Bu, mənim üçün ən yaxşı hədiyyə olacaq".

Rusiyada yaşanan bu hadisəni oxuduqda, istər-istəməz Azərbaycanda hansısa qadın məmurun belə bir addım atıb-atmayacağı sualını doğurur. Xatırladaq ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ölkəmizdə dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28,6 faiz təşki edir. Milli Məclis üzvlərinin 16,8 faizi də qadınlardan ibarətdir.

Azərbaycanın qadın məmurları analoji hədiyyə təklifi alarlarsa, Taliyə xanım kimi nümunəvi davranış sərgiləyərlər, yoxsa hədiyyəni götürməyə üstünlük verərlər? Ümumiyyətlə, Azərbaycanda dövlət məmurlarının hədiyyə almasına qanunvericilikdə hansı məhdudiyyətlər nəzərdə tutulur?

**Suallara cavab verən hüquqşünas Əkrəm Həsənov bildirir ki, dövlət məmurlarının ala biləcəkləri hədiyyənin dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunla müəyyən olunub:** "Əvvəllər bu məsələ "Dövlət qulluğu haqqında" Qanunla tənzimlənirdi. Daha sonra "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanun qəbul olundu. Qanunun 8-ci maddəsinə əsasən vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı hüquqi və ya fiziki şəxsdən ümumi məbləği 55 manatdan yuxarı olmayan bir və ya bir neçə hədiyyəni qəbul edə bilər. Həmin məbləğdən yuxarı olan hədiyyə həmin vəzifəli şəxsin işlədiyi quruma məxsus hesab edilir. Yəni dövlət məmuru 55 manatdan yuxarı hədiyyə qəbul edə bilər, amma bir şərtlə ki, onu versin işlədiyi dövlət qurumuna".

**Hüquqşünasın sözlərinə görə, Rusiyada dövlət məmurlarının gəlirləri barədə bəyannamə verməsi mexanizmi tətbiq olunur:** "Bu mexanizm orada oturuşub artıq. Hər bir dövlət məmuru özünün illik gəlir və xərcləri barədə məlumatı açıqlayır. Tatarıstan da Rusiyanın subyekti olduğu üçün xanım məmur həqiqətən o avtomobili rəsmiləşdirməkdə çətinlik çəkə bilərdi. Bizdə bu mexanizm tətbiq olunmadığı üçün məmurlar öz adlarına, ailə üzvlərinin adına istədikləri qədər daşınar və daşınmaz əmlak əldə edə bilirlər".

**Azərbaycanda xanım məmurların analoji davranış sərgiləməsini isə Ə.Həsənov gözləmir:** "Bəlkə də qadınların ürəyincə olmayacaq, amma hesab edirəm ki, Azərbaycanda korrupsiyanın çoxu rüşvəti məhz qadınlara görə alırlar. Ya evdə arvadı beyni yeyir ki, hamı gedib alır, qazanır sən bacarmırsan, ya da məşuqəsi buna təhrik edir. Yəni Azərbaycandakı korrupsiya prosesi qadınsız keçmir".

**Tanınmış hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirir ki, Azərbaycanda qadınlar korrupsiya prosesində ikitərəfli rol oynayır:** "Birincisi, harın məmurun arvadı özündən də betər olur. Adətən çox kişiləri korrupsiyaya, rüşvətə evdəki situasiya məcbur edir. Vəzifədə işləyən qadınlara gəlincə, vallah, onlar kişilərdən geridə qalmırlar. Bu, ümumiyyətlə, vəzifəyə, kresloya olan ümumi yanaşmadan doğan haldır. Azərbaycanda hamı vəzifəyə böyük qazanc yeri, əlavə gəlir mənbəyi kimi baxır. Ona görə də vəzifəyə gələn kim olursa-olsun, rüşvətə, korrupsiyaya bulaşır".

**M.Qəhrəmanlı da Azərbaycanda Tatarıstandakı kimi nümunələrin olması üçün "Gəlir bəyannamələri haqqında" Qanunun qəbulunu zəruri sayır:** "2005-ci ildən bəri bu proses uzanır, hələ də həllini tapmayıb. Məmur bilsə ki, ilin sonunda gəlir və xərcləri barədə bəyannamə açıqlamalı olacaq, korrupsiyaya bu qədər bulaşmaz. Qadınların rüşvət almasına gəlincə, korrupsionerin qadını, kişisi olmaz. O elə korrupsionerdir. Bu gün ölkədə aparılan islahatların effekt verməsi üçün məmurların gəlir bəyannaməsi verməsi mexanizmini tətbiq etmək lazımdır. Yoxsa birini çıxarıb başqasını qoyurlar, yeni gələn də eyni yolla gedir..."

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 56 (7226) 12 mart 2019*




## Yaquarla selfi çəkdirmək istədi, hücuma məruz qaldı

**Amerikanın Arizona ştatındakı bir zooparkda yaşayan bir yaquar baryeri aşıb, selfi çəkməyə çalışan bir qadına hücum edib. Qadının aldığı yaraların həyati təhlükə daşımadığı üzə çıxıb. Şənbə günü baş verən hadisədə qadının baryeri aşdığı və yaquarla selfi çəkmək üçün heyvanın yaşadığı sahəyə yaxınlaşdığı açıqlandı.**

Yaquarın da citləri aşaraq qadına pəncə zərbəsi endirdiyi və qolunda dərin yaralar yarandığı qeyd edildi. Vəhşi Həyat Dünyası Zoopark müdiri Mikey Ollson "Baryerləri aşmağa çalışan insanlara deyəcək bir şey tapa bilmirəm. Ora baryer qoyulmasının bir səbəbi var" dedi.

Ollson eyni yaquarın daha öncə də baryeri keçən başqa birinə hücum etdiyini, amma yaralanmanın bu qədər ciddi olmadığını dedi. Ollson eyni zamanda hadisənin "insan xətasından" qaynaqlandığını və yaquarın iynə ilə yatızdırıla bilməyəcəyini qeyd etdi. Videonu çəkən şahid Adam Vilkerson, bir nəfərin "imdad" deyə bağırdığını eşidincə, qaçdığını söylədi. Vilkerson, "Yaquar qəfəsin xaricində pəncələrini qadının əlinin ətrafında birləşdirmiş və ətinə batırmışdı. Anam yaquarın diqqətini dağıtmaq üçün əlindəki su şüşəsini atdı. Daha sonra yaquar pəncəsi qadının paltarına ilişdiyi üçün qadını bir az azad buraxdı. O anda qadını çəkdim və pəncədən qurtuldu. Yaquar sonra su şüşəsinin arxasınca getdi" dedi.

## İtən uşağı öz evlərində polis tapdı

**Böyük Britaniyadakı Suinton şəhərində evdə yatıb qalan balaca oğlanın axtarışı üçün polis çağırılıb. Bu barədə "Daily Mail" qəzeti xəbər verir. Belə ki, bacı-qardaşı ilə oynayan zaman 2 yaşlı Loqan Marklend qəflətən itib. Valideynləri Samanta və Ceyms bütün evi axtarsalar da, onu tapa bilməyiblər. Nəticədə qonşular axtarışa qoşulub. Bu da fayda verməyəndə polisə müraciət olunub. Uşağın tapılmasına 40 dəqiqə sərf olunub və o, qardaşlarından birinin yatağında tapılıb. Onu qonşularının uşağı aşkar edib. Onun gec tapılmasının səbəbi isə yataqda, üstündə oyuncaqlarla yatılı olması olub.**



## Böyrəyində daş şikayəti ilə həkimə getdi, uşaq dünyaya gətirdi



**Amerikalı Ellison Opfer doğuş sancıları başlayanda da hamiləliyindən xəbər tuta bilməyib. Lenta.ru saytının xəbərinə görə, pasient xəstəxanaya böyrəyində daş şikayəti ilə müraciət edib. Ohayo ştatının Portic bölgəsi sakini qəflətən qarnında ağrı hiss edib. Opfer təcili yardım çağırıb, gələn həkim isə onun böyrəyində daş olmasından şübhələnib. 22 yaşlı amerikalı xəstəxanaya çatdırıb, ultrasəs müayinəsinə göndərib. Onun böyrəyində daş aşkarlanmayıb. Amma təsdiqlənib ki, hamiləliyin axırıncı günlərindədir və hətta bu ağrılar doğuş sancılarıdır.**

Opferin qəfil arterial təzyiqi artıb və həkimlər bildirib ki, onda preklampsiya yaranıb. Təzyiqin yüksəyə qalxması nəticəsində ana və uşağın həyatı təhlükə altına girir. "Onlar mənə dedilər ki, əgər təcili yardımı gec çağırsaydım, ölə bilərdim" - bunu amerikalı deyib. Onu qeysəriyyə əməliyyatına göndəriblər. Bir saat sonra dünyaya Oliver adlı oğlan gəlib. Opfer hamiləliyi barədə bilmirdi.

O, çəki artımını düzgün olmayan qidalanma və oturaq həyat tərzi ilə izah edirdi. Hətta bir dəfə hamiləlik testini keçsə də, bu, neqativ nəticə göstərib.

**Həkim Kayrin Danston əlavə edib ki, Opferin situasiyasına dair hallar o qədər də nadir baş vermir.** "Hər şey bədən quruluşundan asılıdır. Belə ki, çanaq və bətnin formasına müvafiq olaraq hamiləlik nəzərəçarpmaz formada ola bilər" - bunu da həkim deyib.

## Qoroskop




**QOÇ** - Özünüzdən böyüklərin və nə vaxtsa sizə yaxşılıq edənlərin üzünə ağ olmayın. Unutmayın ki, atalar "su gələn arxa bir də gələr" deyib. İkili düşüncələrdən xilas olmağa çalışın.

**BUĞA** - Potensial enerjinizin zəifləməsi fəaliyyətinizin passivləşməsinə rəvac verir. Buna baxmayaraq, bürcünüzə xas olmayan mistikaya meyl etməməlisiniz. Kənardan dəstək əldə etməyə çalışın.

**ƏKİZLƏR** - Köməyə böyük ehtiyacınız olduğunu görən Göy qübbəsi xidmətinizdə duracaq. Belə ki, nahardan sonra etibar etdiyiniz adamlardan dəstək alacaqsınız. Onları aramaqla məşğul olun.

**XƏRÇƏNG** - Ümumi gərginliyi nəzərə alıb gün ərzində ehtiyatlı taktikalardan istifadə etməlisiniz. Hər hansı mübahisə və hiyləgərlik müsbət nəticə verməyəcək. Riskli işlərdən uzaq olun.

**ŞİR** - Ulduzlar gün ərzində külli-ixtiyarı özünüzə verəcək. Bu səbəbdən də atdığınız addımlara, verdiyiniz qərarlara diqqət yetirməlisiniz. Nahardan sonra maraqlı hadisələrin şahidi olacaqsınız.

**QIZ** - Fəaliyyət göstərdiyiniz yerlərdə iş yoldaşlarınızla münasibətləri yaxşılaşdırın. Kiminsə yersiz atmacalarına əhəmiyyət verməyin. Saat 13-dən sonra daxili süstlüyünüz səngiyəcək.

**TƏRƏZİ** - Məhəbbət və nifrət! Gün ərzində bu iki amildən maksimum istifadə edəcəyiniz gözlənilir. Amma yaxşını kimə, pisi kimə yönəldəcəyinizi özünüz təyin edin. Səhhətinizə də fikir verin.

**ƏQRƏB** - Yeni işgüzar əlaqələrə başlamaq üçün uğurlu ərəfədir. Amma aldanma ehtimalınızın olacağını göz önünə gətirib ehtiyatı da əldən verməməlisiniz. İşdə məsuliyyətinizi hiss edin.

**OXATAN** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün geniş imkanlarınız var. Təxminən saat 12-dən etibarən bu yönümdə əzmkarlığınızı artırmalısınız. Bu gün başqalarının rəyini ciddi qəbul etməyin.

**OĞLAQ** - Səhhətiniz qaydasında olduğuna tam əminsinizsə, ən ciddi işlərin həllinə başlamağa dəyər. Saat 17-yə qədər böyük perspektivdən xəbər verən sövdələşmələrdə iştirakınız labüddür.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə əsasən emosiyalarınızı buxovlamalı, qeyri-ciddi işlərinizi təxirə salmalısınız. Ümumiyyətlə, ətrafda hər şeyin sabit olması üçün əzmkarlıq göstərməlisiniz.

**BALIQLAR** - Özünüzü aparıcı şəxs kimi təqdim etməyin. Yoxsa ətrafdakıların ikrahını qazana bilərsiniz. Hər halda, obyektiv fikirlərə də qiymət verməlisiniz. Riskli qərarlardan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Burun əməliyyatı 3 aylıq koma ilə bitdi



**11 ay öncə evlənən 26 yaşındakı İbrahim Doğan rahat nəfəs ala bilmədiyi üçün üç ay əvvəl burnunu əməliyyat etdirməyə qərar verib. Amma əməliyyat zamanı gənc adam komaya girib və komadan çıxa bilmir. İ.Doğanın həyat yoldaşı prokurorluğa şikayət edib. 11 yanvarda əməliyyata girən gəncin burnundakı sümük alınarkən qəribə hadisə baş verib. Öncə gəncin ürəyi dayanıb, müdaxilədən sonra ürəyin fəaliyyəti bərpa olunub. Amma bu zaman da onun beyninə oksigen getməyib. Dərhal gənci Pamukkale Universiteti Xəstəxanasına göndəriblər. Bununla belə, 3 aydır ki, İ.Doğan reanimasiyadadır və ayılmır.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755